# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 428 May 2023



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



Heydər Əliyev – 100

Heydar Aliyev – 100










# İÇİNDƏKİLƏR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti......6**
**Üçüncü Şeir Qiraət Müsabiqəsinin qalibləri məlum oldu......14**
**Professor, akademik Hamlet İsaxanlının əlləri "Danışan əllər" qalereyasında......18**
**"Hamlet İsaxanlının şeir dünyasına lirik-epik səyahət" kitabı çap olunub......19**
**İngiltərədə çap olunmuş ikicildli farsdilli ədəbiyyata aid kitabın bir fəslinin müəllifi professor, akademik Hamlet İsaxanlıdır......20**
**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının əmrinə əsasən Xəzər Universitetində Dissertasiya şurası yaradıldı......21**
**Xəzər Universitetinin tələbələri Respublika elmi-praktiki konfransında......23**
**Xəzər Universitetinin əməkdaşları Kütahya Dumlupınar Universitetində......24**
**Xəzər Universitetinin əməkdaşları 1-ci Beynəlxalq işçi Həftəsində......26**
**Xəzər Universitetinin əməkdaşı Caspian Energy Club-un istanbul Forumunda......28**
**"Azərbaycan Oxucuları" Kitab Klubunun təqdimatı......31**
**"AIESEC Azərbaycan" "Xəzər"də......32**
**Mərmərə Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbərliyi ilə görüş......34**
**"Xəzər"in tələbəsi Estoniya Həyat Elmləri Universitetində......36**
**Prorektor U-Train layihəsinin açılış toplantısında......36**
**Beynəlxalq əlaqələr ofisinin koordinatoru San Antonio Katolik Universitetində......37**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri......38**
*Hamlet İsaxanlı*. **Çay, qəhvə və kakao - Azərbaycanda mədəni fenomen......40**
**Edinburq Napier Universitetinin doktorant tələbəsi "Xəzər"də......54**
*Əsmər Paşayeva*. **İstanbul Aydın Universitetində bir semestr......55**
**Fulbrayt tədqiqatçıları üçün tədbir......56**
**Tələbələr Şirvanşahlar saray kompleksində......59**
*Ləman Novruz*. **"Brend tələbə": "Üç il əvvələ qayıtsam, yenidən "Xəzər"i seçərdim"** (*müsahibə*)......60
**Heyvan Rifahı Klubunun təşkil etdiyi maarifləndirici təlim......62**
**İsveçrənin "SHG Swiss Hospitality Group" şirkəti ilə görüş......63**
**Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsində Məsləhət Şurasının üzvləri ilə görüş......65**
**Ekspress Təhsil Mərkəzi "Xəzər"də......66**
**"Zamanı idarə et" mövzusunda seminar......67**
**"Xəzər"də NHN-Breyn Ring yarışı......70**
**"Xəzər"in müəlliminin şeir kitablarının təqdimatı......72**
**Gəncə "Dünya" Məktəbində incəsənət və idman Festivalının açılışı......76**

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər
Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Address by President of the Republic of Azerbaijan Ilham Aliyev (*in Azerbaijani*) ..........6
Third Annual Poetry Recitation Contest Yields its Winners ..........14
Professor, Academician Hamlet Isakhanli's Hands in the "Talking Hands" Gallery ..........18
The Book "Lyric-Epic Journey to the Poetry World of Hamlet Isakhanli" Published ..........19
The Author of one Chapter of the Two-volume Book on Persian-Language Literature Published in England is Professor, Academician Hamlet Isakhanli ..........20
According to the Order of the Higher Attestation Commission Under the President of the Republic of Azerbaijan, Dissertation Council Established at Khazar University ..........21
Khazar University Students at Republican Scientific-Practical Conference ..........23
Khazar University Staff Members at Kutahya Dumlupinar University ..........24
Staff members of Khazar University Visit the 1st International Staff Week ..........26
Khazar University Staff Member at Caspian Energy Club's Istanbul Forum ..........28
Presentation of "Azerbaijan Readers" Book Club ..........31
"AIESEC Azerbaijan"at Khazar University ..........32
Meeting With Marmara Strategic and Social Research Foundation Management ..........34
Khazar University Student at Estonian University of Life Sciences ..........36
Vice-rector at the Kick off Meeting of U-Train Project ..........36
Coordinator of International Relations Office at Catholic University of San Antonio ..........37
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*) ..........38
*Hamlet Isakhanli*.Tea, Coffee and Cacao - Cultural Phenomena in Azerbaijan (*in Azerbaijani*) ..........40
PhD Student of Edinburgh Napier University at Khazar University ..........54
*Asmar Pashayeva*. A semester in Istanbul Aydin university ..........55
Event for Fulbright Scholars ..........56
Students in Complex of Shirvanshahs' Palace ..........59
*Laman Novruz*."Brand Student": If I Were to go Back Three Years Ago, I Would Still Choose Khazar University" (*interview; in Azerbaijani*) ..........60
Educational Training Oganized by Animal Welfare Club ..........62
Meeting with "SHG Swiss Hospitality Group" of Switzerland ..........63
Meeting with Advisory Board Members at Khazar University School of Humanities, Education and Social Sciences ..........65
Express Education Center at Khazar University ..........66
Seminar on "Time Management" ..........67
WWW-Brain Ring Competition at Khazar University ..........70
The presentation of Khazar University Faculty Member`s Poetry Books ..........72
Opening of the Art and Sports Festival at Ganja "Dunya" School ..........76

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MÜRACİƏTİ

Əziz bacılar və qardaşlar !

Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bildiyiniz kimi, 2023-cü il mənim Sərəncamımla "Heydər Əliyev İli" elan olunmuşdur. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır.

Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır.

İl başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır. Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa

edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə – 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək, bizim ümumi inkişafımızı təmin edirlər.

Heydər Əliyev 1982-87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır.

Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu. Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma Ulu Öndər hər zaman Azərbaycanın maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə – 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda, qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdı, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı.

Bu tarixi çıxışdan sonra, – çünki Sovet İttifaqının dağılmasına hələ iki ilə yaxın bir vaxt var idi, heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı iki ildən sonra dağılacaq, yəni, bu bəyanat böyük cəsarət tələb edirdi, əsl vətənpərvərlik tələb edirdi, – təbii ki, bu bəyanatdan sonra Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi. Bir neçə aydan sonra - 1990-cı ilin iyul ayında o, Moskvadan Bakıya gəlmiş, ancaq ovaxtkı Azərbaycan rəhbərliyi onu da ona çox görmüşdür. Onun faktoru, güclü lider olması görünür ki, onları yaman narahat edirdi və faktiki olaraq, ona edilən təzyiqlər nəticəsində o, doğulduğu şəhərə - Naxçıvana getmiş və orada yaşamağa başlamışdır.

Naxçıvanın da ağır günləri davam edirdi, Naxçıvan tam blokadada idi. Naxçıvanın, ümumiyyətlə, gələcəkdə yaşaması ilə bağlı çox böyük təhlükələr var idi. Ermənilər necə

ki, Qarabağı ələ keçirməyi planlaşdırırdılarsa, eləcə də Naxçıvanı da ələ keçirməyi planlaşdırırdılar. Naxçıvanı işğal etmək onların planlarının tərkib hissəsi idi. Heydər Əliyev Naxçıvanı qorudu, işğaldan qorudu. Erməni düşmənlər yerinə otuzduruldu və Naxçıvan çətin də olsa, blokada şəraitində də olsa yaşayırdı, əyilmədi, sınmadı, ayaqda qaldı.

Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyəti – həm kommunist, həm dırnaqarası demokrat hakimiyyəti hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdi və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı.

Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdır.

Eyni zamanda, Azərbaycanın müasir siyasi sistemi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Çünki Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır, ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi. Bu partiyanın – Yeni Azərbaycan Partiyasının yaranması bütövlükdə bütün Azərbaycanda böyük əks-səda vermişdir. Azərbaycanın müxtəlif bölgələrindən partiyaya üzv olmaq istəyənlərin axını müşahidə edilirdi və qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmişdir və bu gün də bu, belədir.

Azərbaycanın isə Qarabağ kimi problemi, əfsuslar olsun ki, öz həllini tapmırdı. Hakimiyyətdə olanlar ancaq şəxsi mənafeyi düşünürdülər, talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün, bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər. Torpaqlar əldən gedirdi, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilmişdir. Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır. Ondan sonra faciələrimiz daha da artdı. Şuşa işğal olunandan sonra Laçının taleyi də, demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı.

Məhz bu ağır dövrdə ovaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu görürdü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi.

Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax, budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz – o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq.

Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Çünki bizim torpaqlarımız işğal altında idi, ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yəni, böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər.

Aydın idi ki, ölkənin gələcəyi yalnız xarici sərmayə hesabına mümkün ola bilər. Çünki xəzinə boş idi, inflyasiya min faizlərlə ölçülürdü, sənaye iflic vəziyyətdə idi, hətta neft-qaz sənayesi də faktiki olaraq iflic vəziyyətdə idi. Belə bir vəziyyətdə xarici investorları ölkəyə gətirmək, onları inandırmaq böyük siyasi məharət tələb edirdi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin kontraktı"nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır, bunu da biz kontrakt imzalayarkən şərt kimi qoymuşduq. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da bizə böyük əlavə üstünlük verir.

Əlbəttə ki, daxili və xarici düşmənlər – onlar da başa düşürdülər ki, Azərbaycan artıq inkişaf yoluna qədəm qoyub. Onlar öz çirkin əməllərindən əl çəkmək fikrində deyildilər. "Əsrin kontraktı" imzalanandan iki həftə sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildi. Yenə də Heydər Əliyev amili, xalqın ona inamı bu cəhdin qarşısını aldı. Yüz mindən çox insan Azadlıq meydanına toplaşaraq öz Liderinə dəstəyini göstərmişdir və hərbi çevrilişdə əli olan ünsürlər pərən-pərən oldular. Vəziyyət təzə-təzə sabitləşirdi, 1995-ci ilin mart ayında ikinci dövlət çevrilişinə cəhd. Artıq digər qanaddan gələn zərbə yenə də gənc dövlətimizi sarsıtdı. Yenə də xalq Ulu Öndərin ətrafında birləşərək, o cəhdə də imkan vermədi. 1996-cı ildə sabitliyi pozmaq üçün əlavə cəhdlər göstərildi, onların da heç bir nəticəsi olmadı və yalnız ondan sonra ölkəmizdə, sözün əsl mənasında, sabitlik yaranmışdır. O vaxtdan bu günə qədər biz sabitliyi qoruyuruq.

Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Ona görə hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü Lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

Heydər Əliyev öz xalqına sıx bağlı olan bir adam idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdirilməlidir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız məhdud idi, orduya lazımi qədər vəsaitin ayrılması mümkün deyildi. Çünki ölkə qarşısında duran problemlər çox ciddi idi və bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı, ağır vəziyyətdə yaşayırdı. Neft Fonduna yığılan birinci vəsait yenə də Heydər Əliyevin təşəbbüsü ilə məhz keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirildi. Birinci qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edilmişdir. Vəsaitin qıtlığına baxmayaraq, ordu quruculuğu üçün çox ciddi addımlar atılmışdır.

Bu gün Azərbaycan Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrilib. Xatırlatmaq istəyirəm, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirilmişdi. Məhz o illərdə bu gün "Orta Dəhliz" dediyimiz layihənin bünövrəsi qoyuldu – Avropa-Qafqaz-Asiya. Yəni, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi. Halbuki bəziləri bunu istəmirdilər. Əfsuslar olsun, bu gün də elələri var ki, Azərbaycanı bu strateji layihədən kənarda qoymaq istəyirlər, amma onların arzuları gözlərində qalacaq.

Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır. Bütün bu işlərin təməli o illərdə qoyulub. Mən bütün bu layihələrin iştirakçısı kimi bunu çox yaxşı bilirəm. O vaxt Azərbaycanın neft-qaz potensialı ilə bağlı bir çox uydurmalar, bir çox şayiələr gəzirdi, hələ bu gün də var. Amma həyat onu göstərir ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb.

Yəni, Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu

ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq.

Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq.

Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan demokratik ölkədir. Azərbaycanda insanlar azad yaşayırlar. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni, bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər. Bu unikal ab-hava bu gün ölkəmizi gücləndirir. Bax, bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir. Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, "Qurani-Kərim" yandırılır və buna da biganə yanaşırlar. Yəni, mən bu sözləri söyləməklə bir daha demək istəyirəm ki, bizdə mövcud olan ab-hava unikaldır. Bu, bizim həyat tərzimizdir və eyni zamanda, bu, bizim siyasətimizdir, bu, bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik.

Ölkəmizin beynəlxalq nüfuzu, görün, nə qədər yüksəlib. Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır. Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdə biri – doqquz ölkə ilə strateji tərəfdaşıq. Yəni, beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Biz beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu, bizim torpağımızdır. Bax, durduğum torpaq Azərbaycan torpağıdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik.

İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inki-

şaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun. Heç kimə imkan verməmişik və verməyəcəyik, bunu təmin etmək üçün iradəmiz də yerindədir, gücümüz də yerindədir.

Bununla paralel olaraq, son 20 il ərzində Ulu Öndərin yolu ilə gedərək sosial sahədə böyük irəliləyiş olub, maaşlar, pensiyalar müntəzəm olaraq qaldırılır, keçmiş məcburi köçkünlər üçün şəhərciklər salınıb, 300 mindən çox keçmiş məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. İndi isə onlar üçün biz, bax, Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Laçında, Xocavənddə, Hadrutda, Ağalıda, Talışda, Suqovuşanda evlər inşa edirik və inşa edəcəyik. Mən qeyd etdiyim kimi, son günləri Qarabağda və Zəngəzurda keçirmişəm, bizim siyasətimizin, qəbul edilmiş qərarların təzahürləri artıq hər yerdə görünür. Bu, böyük xoşbəxtlikdir. Müharibədən cəmi iki il yarım keçəndən sonra artıq biz keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq. Qeyd etdiyim kimi, 10 kəndin bünövrəsi, bax, bu son günlərdə qoyulubdur. Bütün şəhərlərin Baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır.

Biz müasir texnologiyalara böyük önəm verərək, Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda, bizim investisiyalarımız, sərmayələrimiz – biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq.

Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar. Əlbəttə ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyada, dünyanın müxtəlif yerlərində müxtəlif meyillər baş verir, müxtəlif tendensiyalar müşahidə olunur, dırnaqarası yeni dəyərlər meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq. Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk. Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!

Əlbəttə, biz ordu quruculuğu işində sistemli fəaliyyət göstərirdik və bu gün də göstəririk. İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu

dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir.

İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdi ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim bunu, gərək məni eşidəydilər. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz Bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi.

Qeyd etdiyim kimi, Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!" Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı.

Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda, hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq.

Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək.

Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**10.05.2023**

# ÜÇÜNCÜ ŞEİR QİRAƏT MÜSABİQƏSİNİN QALİBLƏRİ MƏLUM OLDU

# THIRD ANNUAL POETRY RECITATION CONTEST YIELDS ITS WINNERS



*Milana Abbasova*



Mayın 5-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamenti tərəfindən universitetin qurucusu, alim və şair, professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyi münasibətilə Üçüncü Şeir Qiraət Müsabiqəsi təşkil edildi.

Departamentin müdiri Dr. Milana Abbasovanın giriş sözündən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və universitetin rektoru dosent İradə Xəlilova, de-

Khazar University English Language and Literature Department hosted its third poetry recitation contest on May 5, in celebration of Khazar University founder, scholar and poet professor, academician Hamlet Isakhanli's 75th birthday anniversary.

Following the opening remarks of Dr. Milana Abbasova, head of the English Language and Literature Department, the founder of Khazar University, the chairman of the board of directors and trustees, professor, academician Hamlet



*Elnur Gajiev*

*Lidiya Həmidova*
*Lidia Gamidova*



*Saulet Alpisbaeva*






*Hamlet İsaxanlı* *Hamlet Isakhanli*

partamentin baş müəllimi Firəngiz Nəsirova və İctimai TV-nin aparıcısı Saleh Bağırov çıxış edərək, ardıcıl keçirilən tədbirin tələbələrin inkişafındakı önəmindən danışdılar.

Tədbirə zoom video konfransı vasitəsilə qatılan Türkiyənin Manisa Celal Bayar Universitetindən Dr. Mira Pınar Dolapkaya iştirakçılara xoş arzularını çatdırdı və gələn il Manisa Celal Bayar Universitetinin tələbələrinin də bu müsabiqədə iştirak etmək imkanlarının olacağına ümid etdiyini bildirdi.

Departamentin müdiri Dr. Milana Abbasova, müəllimləri Lidiya Həmidova, İlham Tağıyev, Kəmalə Əsgərova və Nailə Qasımova, Abılay Xan adına Qazaxıstan Beynəlxalq Münasibətlər

*(Ardı səh.16-da)*

Isakhanli, the rector of the university, associate professor Irade Khalilova, and the head teacher of the department Firangiz Nasirova and Saleh Baghirov, Public TV host, spoke about the importance of the successive events in the development of students.Joining via Zoom video conference, Dr. Mira Pinar Dolapkaya from Manisa Calal Bayar University, Türkiye, extended her good wishes to the contestants and expressed her hopes for next year's participation opportunities for the students of Manisa Calal Bayar University.

The contestants' performances were judged for accuracy, dramatic appropriateness, evidence of understanding, voice and articulation, and overall impression at the decision of the panel of judges

*(To be continued page 16)*



*Kəmalə Əsgərova* *Kamala Askerova*     *İlham Tağıyev,* *Ilham Tagiyev*



*Firəngiz Nəsirova* *Firangiz Nasirova*




*1-cü yer: Bahar Həmidli*
*1st place: Bahar Hamidli*

və Dünya Dilləri Universitetindən Saulet Alpisbaeva və Havay Universitetindən Fulbrayt alimi Dr. Elnur Gajiyevdən ibarət münsiflər heyəti müsabiqə iştirakçılarının çıxışlarını dəqiqlik, dramatik uyğunluq, anlama, səs, artikulyasiya və ümumi təəssürat əsasında qiymətləndirib, qalibləri müəyyənləşdirdilər:

1-ci yer - Bahar Həmidli; 2-ci yer - Gülay Ələkbərova və Nurcan Qazizadə; 3-cü yer - Şayeste Mələkan, Afaq Mustafazadə və Xədicə Əhmədzadə.

Qaliblərə sertifikat təqdim olundu.




*Saleh Bağırov*
*Saleh Baghirov*




*2-ci yer: Gülay Ələkbərova*
*2nd place: Gulay Alakbarova*

to include the department's head Dr. Milana Abbasova, instructors Firangiz Nasirova, Lidia Gamidova, Ilham Tagiyev, Kamala Askerova, and Naila Gasimova, and joined by Saulet Alpisbaeva from Kazakh Ablai Khan University of International Relations and World Languages and a Fulbright scholar Dr. Elmur Hajiyev from Hawaii University.

The winners of the contest are:

1st place: Bahar Hamidli; 2nd place: Gulay Alakbarova and Nurjan Gazizadeh; 3rd place: Shayeste Malekan, Afag Mustafazadeh and Khadija Ahmadzadeh.

The winners were awarded certificates.



*Nailə Qasımova*
*Naila Gasimova*



*2-ci yer: Nurcan Qazizadə*
*2nd place: Nurjan Gazizadeh*



*3-cü yer: Şayeste Mələkan*
*3rd place: Shayeste Malekan*




*3-cü yer: Xədicə Əhmədzadə*
*3rd place: Khadija Ahmadzadeh*




*3-cü yer: Afaq Mustafazadə*
*3rd place: Afag Mustafazadeh*




## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ ƏLLƏRİ "DANIŞAN ƏLLƏR" QALEREYASINDA

Heykəltəraşlar Namiq Hüseynov və Kənan Əliyev "Danışan əllər" adlı maraqlı layihə hazırlayıblar. Onlar 100 nəfər tanınmış insanların - musiqiçilər, aktyorlar, rəssamlar, şair və yazıçılar, elm və sənət adamlarının əllərinin heykəlini yaradıblar. Bu əllər arasında Xəzər Universitetinin təsisçisi, görkəmli elm adamı, təhsil qurucusu və ictimai xadim, professor, akademik Hamlet İsaxanlının da əlləri yer alıb.

"Danışan əllər" may ayının 6-da Nardaranda yerləşən qalereyada ictimaiyyətə təqdim olunub. Qalereyanın açılışı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən həyata keçirilib.

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI'S HANDS IN THE "TALKING HANDS" GALLERY

Sculptors Namig Huseynov and Kanan Aliyev have developed an interesting project called "Talking Hands". They created sculptures of the hands of 100 famous people - musicians, actors, artists, poets and writers, scientists and artists. Among these hands are the hands of Hamlet Isakhanli, the founder of Khazar University, a well-known scientist, founder of education and public figure, professor, academician.

"Talking Hands" was presented to the public on May 6 in the gallery located in Nardaran. The opening of the gallery was held by Vice-President of the Heydar Aliyev Foundation Leyla Aliyeva.

## "HAMLET İSAXANLININ ŞEİR DÜNYASINA LİRİK-EPİK SƏYAHƏT" KİTABI ÇAP OLUNUB




Xəzər Universitetinin prorektoru, filologiya elmləri doktoru İsaxan İsaxanlının "Hamlet İsaxanlının şeir dünyasına lirik-epik səyahət" adlı kitabı Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmışdır.

Hamlet İsaxanlının şeir kitabları iyirmi ildən çox bir müddət ərzində Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə, İran, Çin və digər ölkələrdə çap olunub, yaradıcılığı haqqında məqalələr yazılsa da, kitabın məqsədini müəllif özü belə açıqlayır: "Bəlkə başqalarına açıq görünməyən bəzi məqamları aça bildim" arzusu məni də vadar etdi Hamlet İsaxanlı poeziyası haqqında söz deməyə." Müəllifin Hamlet İsaxanlını qardaş kimi yaxşı tanıması, həyatı boyu onun ətrafında olması, onun dünyaya, həyata, insanlara, insanlığa münasibətinin canlı şahidi olması bu arzuya haqq qazandırır.

Elə kitabın mündəricəsinə nəzər salmaqla müəllifin bu məqsədə doğru getdiyi "pillə"lər aydın duyulur: "Kimdir Hamlet İsaxanlı?", "Məchul bir yürüşə çıxıbdı şeirim", "Haqqı tapdayarmı haqq sevən insan?", "Dünyanı eşq yaşadar!", "İncə təbiətli zərif hisslər şairi", "Xatirələrdən hörülmüş şair", "Düşündürən poeziya" və "Xəlqilikdən gələn poetik zənginlik".

Məhz bu "pillə"lər vasitəsilə müəllif Hamlet İsaxanlının dolğun şair obrazını yaratmağa nail olmuşdur.

## THE BOOK "LYRIC-EPIC JOURNEY TO THE POETRY WORLD OF HAMLET ISAKHANLI" PUBLISHED

The book "Lyric-epic journey to the poetry world of Hamlet Isakhanli" by the vice-rector of Khazar University, doctor of philology Isakhan Isakhanli was published by Khazar University Publishing House.

Hamlet Isakhanli's poetry books have been published in Azerbaijan, Georgia, Russia, Turkey, Iran, China and other countries for more than twenty years, and articles have been written about his work, but the purpose of the book is explained by the author himself:" Hopefully, I can bring some points to light that are not obvious to everyone, and this desire made me speak about Hamlet Isakhanli's poetry." This desire is justified by the fact that the author knows Hamlet Isakhanli well as a brother, was around him throughout his life, is a living witness of his attitude to the world, to life, to people, to humanity.

With an in-depth look at the book' s content, the author's "steps"towards this goal are clear: "Who is Hamlet Isakhanli?", "My poem went on an unknown journey", " Will a person who loves the truth trample on the truth?", "Love keeps the world alive!", "A poet of tender feelings with a delicate nature", "A poet woven from memories", "Thinking poetry" and "Poetic wealth from folk".

It is through these "steps" that the author managed to create a complete image of Hamlet Isakhanli as a poet.




# İNGİLTƏRƏDƏ ÇAP OLUNMUŞ İKİCİLDLİ FARSDİLLİ ƏDƏBİYYATA AİD KİTABIN BİR FƏSLİNİN MÜƏLLİFİ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLIDIR

Professor, akademik Hamlet İsaxanlının müəllifi olduğu "Geographical Space and Historical Time Layers in Nizami Ganjavi's Works" ("Nizami Gəncəvinin əsərlərində coğrafi məkan və tarixi zaman qatları") adlı fəsil farsdilli ədəbiyyata aid ikicildli "Routledge Handbook of Ancient, Classical and Late Classical Persian Literature" ("Routledge Qədim, Klassik və Son Klassik Fars Ədəbiyyatı Kitabı") adlı kitaba daxil edilmişdir. Həmin fəsildə Nizami Gəncəvi yaradıcılığından və əsərlərindəki coğrafi məkan və zaman anlayışlarından bəhs olunur. Kitabda dünyanın müxtəlif ölkələrindən olan elm adamlarının qədim və klassik farsdilli ədəbiyyata aid yazıları yer alıb.

Kitab İngiltərədə yerləşən, dünyanın aparıcı elmi nəşriyyatlarından biri olan Routledge tərəfindən nəşr olunub. Taylor & Francis Group-a aid Routledge nəşriyyatı, əsasən, humanitar və sosial mövzularda elmi kitablar, jurnallar və onlayn resursların naşiri kimi fəaliyyət göstərir.

10

GEOGRAPHICAL SPACE AND HISTORICAL TIME LAYERS IN NIZAMI GANJAVI'S WORKS

*Hamlet Isaxanli*

DOI: 10.4324/9781315124216-18

# THE AUTHOR OF ONE CHAPTER OF THE TWO-VOLUME BOOK ON PERSIAN-LANGUAGE LITERATURE PUBLISHED IN ENGLAND IS PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

The chapter entitled " Geographical Space and Historical Time Layers in Nizami Ganjavi's Works", authored by professor, academician Hamlet Isakhanli, is included in the two-volume book on Persian-language literature "Routledge Handbook of Ancient, Classical and Late Classical Persian Literature". In that chapter, Nizami Ganjavi's creativity and the concepts of geographical space and time in his works are discussed. The book contains the writings of scientists from different countries of the world related to ancient and classical Persian literature.

The book was published by Routledge, one of the world's leading scientific publishers based in England. Routledge Publishing, part of the Taylor & Francis Group, is a publisher of scholarly books, journals, and online resources primarily in the humanities and social sciences.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ ƏMRİNƏ ƏSASƏN XƏZƏR UNİVERSİTETİNDƏ DİSSERTASİYA ŞURASI YARADILDI

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 20 aprel 2023-cü il tarixli 3-50/3-1-1-195/2023 nömrəli əmrinə əsasən Xəzər Universiteti nəzdində 5802.01 – "Təhsilin təşkili və planlaşdırılması" və 5804.01- "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi" ixtisasları üzrə pedaqogika elm sahəsində fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi FD 2.49 olan Dissertasiya şurası yaradılmışdır.

**5802.01 – "Təhsilin təşkili və planlaşdırılması" ixtisası üzrə**

| | |
|---|---|
| 1. İsayev Hamlet Abdulla oğlu (sədr) | fizika-riyaziyyat elmləri doktoru, professor |
| 2. Abbaslı Könül Abbasqulu qızı | pedaqogika üzrə fəlsəfə doktoru |
| 3. Abbasov Akif Nurağa oğlu | pedaqogika elmləri doktoru, professor |
| 4. Buluç Bekir (Türkiyə Respublikası) | professor |
| 5. Əliyeva Leyla Xudadat qızı | pedaqogika üzrə fəlsəfə doktoru |
| 6. Kan Adnan (Türkiyə Respublikası) | professor |

**5804.01- "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi" ixtisasları üzrə**

| | |
|---|---|
| 1. İsaxanlı İsaxan Abdulla oğlu (elmi katib) | Filologiya elmləri doktoru, dosent |
| 2. Məmmədov Şahkərəm Mirzəməmməd oğlu | pedaqogika üzrə fəlsəfə doktoru, dosent |
| 3. Sadıqov Fərahim Balakişi oğlu | pedaqogika elmləri doktoru, professor |
| 4. Şərifov Hicran İbrahim oğlu | pedaqogika üzrə fəlsəfə doktoru |
| 5. Xəlilov Vidadi Cəmil oğlu | pedaqogika elmləri doktoru, professor |
| 6. Gelişli Yücel (Türkiyə Respublikası) | professor |

## ACCORDING TO THE ORDER OF THE HIGHER ATTESTATION COMMISSION UNDER THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN, DISSERTATION COUNCIL ESTABLISHED AT KHAZAR UNIVERSITY

The Higher Attestation Commission under the president of the Republic of Azerbaijan established a Dissertation Council with registration number FD 2.49 at Khazar University for organizing the defense of doctoral theses in the field of pedagogy on the specialties 5802.01 – "Organization and planning of education" and 5804.01 – "General pedagogy, history of pedagogy and education" according to the order No. 3-50/3-1-1-195/2023 of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan dated April 20, 2023.

**On the specialty of "Organization and planning of education" – 5802.01**

| | |
|---|---|
| 1. Isayev Hamlet Abdulla (chairman) | Doctor of Physical and Mathematical Sciences, Professor |
| 2. Abbasli Konul Abbasgulu | PhD in Pedagogy |
| 3. Abbasov Akif Nuragha Doctor | Doctor of Pedagogical Science, Professor |
| 4. Buluch Bekir (Republic of Türkiye) | Professor |
| 5. Aliyeva Leyla Khudadat | PhD in Pedagogy |
| 6. Kan Adnan (Republic of Türkiye) | Professor |

**On the specialty of "General pedagogy, history of pedagogy and education" – 5804.01**

| | |
|---|---|
| 1. Isakhanli Isakhan Abdulla scientific secretary) | Doctor of Philological Sciences, Associate Professor |
| 2. Mammadov Shahkarem Mirzamammad | Ph.D. in Pedagogy, Associate Professor |
| 3. Sadigov Farahim Balakishi | Doctor of Pedagogical Sciences, Professor |
| 4. Sharifov Hijran Ibrahim | Ph.D. in Pedagogy |
| 5. Khalilov Vidadi Jamil | Doctor of Pedagogical Sciences, Professor |
| 6. Yücel Gelishli (Republic of Türkiye) | Professor |

## XƏZƏR UNİVERSİTETİNİN DEKANI BİLATERAL EXCHANGE OF ACADEMICS (2023) VƏ FULBRIGHT VISİTİNG SCHOLAR PROQRAMININ (2023-2024) QALİBİ OLUB

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru Səidə Şərifova Almaniyanın Akademik Mübadilə Xidmətinin (DAAD) Bilateral Exchange of Academics (2023) proqramının və Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Təhsil və Mədəniyyət İşləri Bürosunun dəstəklədiyi Fulbright Visiting Scholar proqramının (2023-2024) qalibi olub. Tədqiqatçı, Bilateral Exchange of Academics proqramı çərçivəsində Almaniyanın Bielefeld Universitetinin Hesablama biologiyası departamentində "Application of bioinformatics methods for drought stress-modulated alternative splicing analysis in plants", Fulbright proqramı çərçivəsində isə Amerika Birləşmiş Ştatlarının Kolorado Ştat Universitetinin (Colorado State University) Biologiya departamentində "Drought stress-modulated alternative splicing landscape in wild plant species" mövzusunda tədqiqat layihəsi üzərində işləyəcəkdir.

Dr. Səidə Şərifova 2017-2018-ci ildə də Fulbright Visiting Scholar Proqramının qalibi olmuş və 4 ay müddətində Amerika Birləşmiş Ştatlarının Kaliforniya Universitetində (Davis) qonaq tədqiqatçı kimi çalışmışdır.

## KHAZAR UNIVERSITY DEAN WINS BILATERAL EXCHANGE OF ACADEMICS (2023) AND FULBRIGHT VISITING SCHOLAR PROGRAM (2023-2024)

Saida Sharifova, Dean of Graduate School of Science, Art and Technology, PhD in Biology was the winner of the Bilateral Exchange of Academics ( 2023) program of the German Academic Exchange Service ( DAAD) and the Fulbright Visiting Scholar program ( 2023-2024)supported by the Bureau of Educational and Cultural Affairs of the United States Department of State. The researcher will work on a research project on the topic " Application of bioinformatics methods for drought stress-modulated alternative splicing analysis in plants" within the Bilateral Exchange of Academics program at the Computational Biology Department of Bielefeld University, Germany and within the Fulbright program, she will work on the research project "Drought stress-modulated alternative splicing landscape in wild plant species" in the Department of Biology of the Colorado State University of the United States of America.

Dr. Saida Sharifova won the Fulbright Visiting Scholar Program in 2017-2018 and worked as a visiting researcher at the University of California (Davis) in the United States of America for 4 months.

## İSTANBUL UNİVERSİTETİNİN DOKTORANTI "XƏZƏR"DƏ

Türkiyənin İstanbul Universitetinin doktorantı İnci Şıxəliyeva 2023-cü il aprelin 20-də Xəzər Universitetində təşkil olunmuş seminarda "Axın sitometriyası və HPLC: iş prinsipi və tətbiq sahələri" adlı məruzə ilə çıxış etmişdir.

İnci Şıxəliyeva "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında İstanbul Universitetində "Molekulyar biologiya və genetika" ixtisası üzrə doktorantura təhsili alır.

Seminarda "Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin, həmçinin Həyat elmləri departamentinin müəllim və tələbələri iştirak etmişlər. Doktorant İnci Şıxəliyevanın məruzəsindən sonra mövzu ilə əlaqədar suallar cavablandırılmış və müzakirələr aparılmışdır.

## PHD STUDENT OF ISTANBUL UNIVERSITY AT KHAZAR UNIVERSITY

On April 20, Inci Shikhaliyeva, PhD student at Istanbul University in Türkiye, gave a speech entitled "Flow cytometry and HPLC: working principle and application areas" at the seminar organized at Khazar University.

Inci Shikhaliyeva is studying for a doctoral degree in "Molecular biology and genetics" at Istanbul University based on a tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the framework of the "State Program for Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023".

The seminar was attended by the faculty and students of the Graduate School of Science, Art and Technology, as well as the Department of Life Sciences. After the report of doctoral student Inci Shikhaliyeva, questions related to the topic were answered and discussions were held.

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ RESPUBLİKA ELMİ-PRAKTİKİ KONFRANSINDA

Aprelin 27-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin II kurs tələbələri Nərmin Həsənova, Nuranə Qasımova və Minurə Cavadova Tarix və arxeologiya departamentinin müəllimi Dr.Yaqub Məmmədovun elmi rəhbərliyi ilə Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyinin qiymətləndirilməsi" mövzusunda Tələbə Elmi Cəmiyyətinin Respublika elmi-praktiki konfransında iştirak etmişlər.

Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının birgə təşkilatçılığı ilə adı çəkilən akademiyada keçirilmişdir.

Konfransda M. Cavadova "İslam öncəsi Ərəbistan", N. Həsənova "Hett / Het dövləti, çarlığı, dili, xalqı, hərbi - siyasi, ictimai - iqtisadi münasibətləri", N. Qasımova isə "Qədim dünyanın koloniya sistemi" mövzusunda çıxış etmişlər.

## KHAZAR UNIVERSITY STUDENTS AT REPUBLICAN SCIENTIFIC-PRACTICAL CONFERENCE

On April 27, the II-year students of the School of Humanities, Education and Social Sciences of Khazar University Narmin Hasanova, Nurana Gasimova and Minura Javadova participated in the Republican scientific-practical conference held by the Student Scientific Society on "Investing in human capital and evaluating its effectiveness" dedicated to the 100th anniversary of Heydar Aliyev under the scientific supervision of Dr. Yagub Mammadov.

The conference was jointly organized by the Ministry of Science and Education of the Republic of Azerbaijan, Azerbaijan Trade Unions Confederation and Azerbaijan Academy of Labor and Social Relations at the aforementioned academy.

M.Javadova, N.Hasanova and N.Gasimova delivered speeches at the conference on the following topics accordingly: "Pre-islamic Arabia" "Hittite state, kingdom, language, people, military-political, social-economic relations" and "Colonial system of the ancient world".



*Minurə Cavadova, Yaqub Məmmədov, Nuranə Qasımova, Nərmin Həsənova*
*Minura Javadova, Yagub Mammadov, Nurana Gasimova, Narmin Hasanova*

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI KÜTAHYA DUMLUPINAR UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT KUTAHYA DUMLUPINAR UNIVERSITY

Aprelin 24-28-də Xəzər Universitetinin əməkdaşları - Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin elmi işlər üzrə dekan müavini Günel Bahəddinova və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA107\171) çərçivəsində Kütahya Dumlupınar Universitetinin (Türkiyə) təşkil etdiyi Beynəlxalq İşçi Həftəsi adlı tədbirdə iştirak ediblər. Tədbirə 12 ölkədən 70-ə yaxın universitet əməkdaşları qatılıblar.

Tədbirin proqramına əsasən beynəlmiləlləşmə və mobillik, beynəlxalq layihəni necə idarə etmək və dəstəkləmək, beynəlxalq şəbəkələr və strategiyanın əhəmiyyəti mövzularında universitet əməkdaşları tərəfindən tədqim edilən məru-

On April 24-28, Khazar University staff- deputy dean for scientific affairs of the Graduate School of Science, Art and Technology Gunel Bahaddinova and deputy dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva attended the International Staff Week organized by Kutahya Dumlupinar University (Türkiye) within the framework of the Erasmus+ staff exchange program (KA107171). The event was attended by about 12 university staff from 70 countries.

According to the program of the event, reports on internationalization and mobility, how to manage and support an international project, international networks and the importance of strategy were delivered by the university staff.



*Dumlupınar Universiteti: Beynəlxalq əlaqələr şöbəsinin müdiri Dr.Yunus Şişman, Prof. Dr. Samir Afifi, rektor Kazım Uysal; Rima Linda (Əlcəzair), Aygün Verdiyeva, Günel Bahəddinova*

*Dumlupınar University: Head of International Relations Department Dr. Yunus Shishman, Prof. Dr. Samir Afifi, rector Kazim Uysal; Rima Linda (Algeria), Aygun Verdiyeva, Gunel Bahaddinova*

zələr dinlənildi.

Beynəlxalq İşçi Həftəsində təlimlər, seminarlar, eyni zamanda mədəni tədbirlər keçirildi. Müxtəlif universitet əməkdalarının təqdimatları dinlənildikdən sonra Xəzər Universiteti əməkdaşlarının Dumlupınar Universiteti Beynəlxlaq əlaqələr şöbəsinin müdiri Dr. Yunus Şişman ilə görüşü keçirildi. Görüşdə universitetlər arasında əlaqələrin gücləndirilməsi, yeni layihələrdə birgə fəaliyyətin təşkili ilə bağlı müzakirələr aparıldı. Eyni zamanda, səfər çərçivəsində Kütahya şəhərində "Sıtkı Olçar Çini muzeyi"nə, "Mədəniyyət və sənət evi"nə, "Kütahya kənt tarixi müzeyi"nə, "Aizanoi" qədim yunan kəndinə səfərlər təşkil olundu.

Tədbirin sonunda hər bir iştirakçı Kütahya Dumlupınar Universitetinin rektoru tərəfindən sertifikat ilə təltif edildi.



At the International Staff Week, trainings, seminars, as well as cultural events were held. After the presentations of various university staff, Khazar University employees had a meeting with Dr.Yunus Shishman, head of the International Relations Department of Dumlupinar University. During the meeting, discussions were held on strengthening relations between universities and organizing joint activities in new projects. At the same time, visits to "Sitki Olcar Tile Museum", "House of Culture and Art", "Kutahya Museum Of City History"and "Aizanoi" ancient Greek village were organized in Kutahya.

At the end of the event, each participant was awarded a certificate by the rector of Kutahya Dumlupinar University.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI 1-Cİ BEYNƏLXALQ İŞÇİ HƏFTƏSİNDƏ

# STAFF MEMBERS OF KHAZAR UNIVERSITY VISIT THE 1ST INTERNATIONAL STAFF WEEK

MANİSA CELAL BAYAR ÜNİVERSİTESİ

Aprelin 26-29-da İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr.Milana Abbasova və Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan müavini Dr. Məhəmməd Eldarov Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA107) çərçivəsində Türkiyənin Manisa şəhərində Manisa Celal Bayar Universitetində keçirilmiş 1-ci Beynəlxalq İşçi Həftəsində iştirak etmişlər.

Tədbirdə müxtəlif ölkələrin (Əlcəzair, Bosniya və Herseqovina, Bolqarıstan, İordaniya, Keniya, Mərakeş, Polşa və Rumınıya) nümayəndələri də iştirak ediblər. Səmərəli səfər zamanı Xəzər Universitetinin nümayəndələri Manisa Celal Bayar Universitetinin rektoru Ahmet Ataş ilə də görüşüblər. Onlar gələcək əməkdaşlıqları müzakirə edib, öz fikirlərini və təcrübələrini tədbirin digər iştirakçıları ilə bölüşüblər.



*Milana Abbasova, Ahmet Ataş, Məhəmməd Eldarov*
*Milana Abbasova, Ahmet Atash, Mahammad Eldarov*

Dr. Milana Abbasova, the head of the Department of English Language and Literature and Dr. Mahammad Eldarov, the vice-dean of the Graduate School of Science, Art, and Technology visited Manisa Calal Bayar University, Manisa, Türkiye on the 26th - 29th of April 2023, being nominated for the Erasmus+ Staff Mobility (KA107) project.

The representatives of various countries (Algeria, Bosnia and Herzegovina, Bulgaria, Jordan, Kenya, Morocco, Poland and Romania) also attended the event. During the fruitful visit, our staff members met with Ahmet Atash, the rector of Manisa Calal Bayar University too. They discussed future possible collaborations and shared their views and experiences with the other members of the event.

## QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNA EKSKURSİYA

## EXCURSION TO GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE




Aprelin 30-da Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin və Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədovun rəhbərliyi ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna ekskursiya səfəri ediblər.

Yaqub Məmmədov tələbələrə Qobustan abidəsinin tədqiqi, dünyada yeri haqqında ətraflı məlumat verib. Abidə ilə əyani tanışlıq tələbələr tərəfindən maraqla qarşılanıb.

On April 30, the first-year students of the School of Humanities, Education and Social Sciences and the School of Science and Engineering of Khazar University went on an excursion to the Gobustan State Historical-Artistic Reserve under the guidance of Dr. Yagub Mammadov, the lecturer of the Department of History and Archeology.

Yagub Mammadov gave the students detailed information about the study of the Gobustan monument and its place in the world. Visual familiarization with the monument was met with interest by the students.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI CASPIAN ENERGY CLUB-UN İSTANBUL FORUMUNDA

# KHAZAR UNIVERSITY STAFF MEMBER AT CASPIAN ENERGY CLUB'S ISTANBUL FORUM

Aprelin 30-da Türkiyənin İstanbul şəhərində Caspian Energe Club-ın III Beynəlxalq Forumu keçirildi. Forumu giriş sözü ilə Caspian Energy Club-ın sədri və klubun baş icraçı direktoru, Caspian Energy İnvestment Forumun Təşkilat Komitəsinin sədri Telman Əliyev açdı.

Açılış mərasimində Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, TBMM-nin millət vəkili Şamil Ayrım, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Rəşad Məmmədov, Türkiyə Respublikasının

On April 30, the III International Forum of Caspian Energy Club was held in Istanbul, Türkiye. The forum was opened by Telman Aliyev, chairman of the Caspian Energy Club and chief executive officer of the club, chairman of the Organizing Committee of the Caspian Energy Investment Forum.

Head of the Türkiye-Azerbaijan Inter-Parliamentary Friendship Group, MP Shamil Ayrim, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Azerbaijan to the Republic of Türkiye Rashad Mammadov, Ambassador Extraordinary and Plenipotentiary of the Republic




*Əlövsət Əmirbəyli, Cahit Bağcı; Gelişim Universiteti: Kenan Aydın, Ömer Kaya*

*Alovsat Amirbeyli, Cahit Bagci; Gelisim University: Kenan Aydın, Omer Kaya*




Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Cahit Bağcı, Türkiyə-Azərbaycan İş Şurasının Sədri, DEİK-in (Dış Ekonomik İlişkiler Kurulu) Başqanı Kemal Koloğlu, Caspian Energy Türkiyə Şurasının Sədri Süleyman Məcidli və digərləri çıxış etdilər.

DEİK və Caspian Energy Club Azərbaycan arasında tərəfdaşlıq memorandumu imzalandı. Rəsmi açılış mərasimindən sonra müxtəlif panellərdə energetika sahəsində birgə layihələrin inkişafı, alternativ və bərpa olunan enerjinin istifadəsi, yaşıl enerji, perspektivlər, regionda mövcud olan layihələr, enerji səmərəliliyi, rəqəmsal transformasiya və digər mövzularda müzakirələr aparıldı. Forumda Azərbaycandan və Türkiyədən 200-dən artıq şirkət, dövlər qurumlarının və qeyri-hökümət təşkilatlarının nümayəndələri iştirak etdilər.

Forumda Xəzər Universitetinin İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.

of Türkiye to the Republic of Azerbaijan Cahit Bagci, Chairman of the Türkiye -Azerbaijan Business Council, Chairman of the Foreign Economic Relations Board of Türkiye (DEIK) Kemal Kologlu, Chairman of the Council of Caspian Energy Türkiye Suleyman Majidli and others spoke at the opening ceremony.

A partnership memorandum was signed between DEIK and Caspian Energy Club Azerbaijan. Following the official opening ceremony, various panels discussed the development of joint projects in the field of energy, the use of alternative and renewable energy, green energy, prospects, existing projects in the region, energy efficiency, digital transformation and other topics. The forum was attended by representatives of more than 200 companies, government agencies and non-governmental organizations from Azerbaijan and Türkiye.

Alovsat Amirbeyli, Director of Public Relations and Media of Khazar University, participated in the forum.

## TƏHSİL EKSPERTİ XƏZƏR UNİVERSİTETİ HAQQINDA

Modern.az İnformasiya Agentliyi 2023-cü il mayın 1-də Aytac Əsədovanın "Ən yaxşı müəllimlər hansı universitetlərdə çalişir..." adlı məqaləsini dərc etmişdir. Müəllif bu sualla bir neçə təhsil ekspertinə müraciət etmişdir.

Təhsil eksperti Kamran Əsədov Xəzər Universiteti ilə əlaqədar demişdir: "Biz təbii ki, Xəzər Universiteti ilə bağlı öz müsbət fikrimizi deyə bilərik. Tələbələr orada müəllimlərin fəaliyyəti ilə əlaqədar razılıqlarını bildirir və eyni zamanda həmin universitetdə əmək bazarının standartlarına cavab verən kadr hazırlığı keçirilir."

## EDUCATION EXPERT'S OPINION ABOUT KHAZAR UNIVERSITY

On May 1, 2023 Modern.az Information Agency published Aytaj Asadova's article entitled "Which universities have the best teachers…"

"Of course, we have a positive opinion of Khazar University," an education expert Kamran Asadov said. "In addition to students' satisfaction with the faculty members there, that university also provides personnel training that meets the labor market's standards."

*https://modern.az/tehsil/408420/hansi-universitetin-muellimleri-daha-yaxshidir-ekspertler/*

## BONN UNİVERSİTETİ DOKTORANTININ ONLAYN SEMİNARI

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Almaniyanın Bonn Universitetində "Genetika" ixtisası üzrə doktorantura təhsili alan Güllər Qədiməliyeva 2023-cü il mayın 4-də Xəzər Universitetində təşkil olunmuş seminarda "Genomun redaktəsi və onun müasir seleksiya tədqiqatlarına təsiri" mövzusunda məruzə etmişdir.

Zoom platforması vasitəsilə onlayn şəkildə təşkil olunmuş və Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin, həmçinin Həyat elmləri departamentinin müəllim və tələbələrinin iştirakı ilə keçən seminarda məruzədən sonra suallar cavablandırılmış və müzakirələr aparılmışdır.

## ONLINE SEMINAR OF PHD STUDENT OF THE UNIVERSITY OF BONN

On May 4, Guller Gadimaliyeva, who is pursuing her PhD in "Genetics" at the University of Bonn in Germany under a tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the framework of the "State Program for Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023", delivered a lecture on "Genome editing and its impact on modern selection research" at a seminar organized at Khazar University

Questions were answered and discussions were held after the presentation at the seminar organized online through the Zoom platform and attended by faculty and students of the Graduate School of Science, Art and Technology, as well as the Department of Life Sciences.



*Yasin Məmmədov* *Yasin Mammadov*

# "AZƏRBAYCAN OXUCULARI" KİTAB KLUBUNUN TƏQDİMATI

# PRESENTATION OF "AZERBAIJAN READERS" BOOK CLUB

Mayın 5-də Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzində "Azərbaycan Oxucuları" Kitab Klubu ilə görüş keçirildi.

Görüşü giriş sözü ilə Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli açaraq qonaqları salamladı, tədbirin əhəmiyyətini vurğuladı.

Sonra "Azərbaycan Oxucuları" Kitab Klubunun ideya müəllifi və təsisçisi Yasin Məmmədov geniş təqdimatla çıxış etdi. Bildirdi ki, "Azərbaycan Oxucuları" Kitab Klubu 2022-ci il iyunun 23-də təsis edilmişdir. 2023-cü ildən etibarən aktiv şəkildə fəaliyyətini davam etdirən klubun əsas məqsədi bütün Azərbaycan oxucularını vahid bir platformada birləşdirməkdir.

Təqdimat tələbələr və kitabxana işçiləri tərəfindən maraqla dinlənildi.

On May 5, a meeting was held with the "Azerbaijan Readers" Book Club at the Library Information Center of Khazar University.

Aytac Misgarli, deputy director of the Library Information Center, opened the meeting with an introductory speech, greeted the guests and emphasized the importance of the event.

Then the author of the idea and the founder of the book club "Azerbaijani Readers" Yasin Mammadov made a comprehensive presentation. He noted that the Book Club "Azerbaijani Readers" was founded on June 23, 2022. The main goal of the club, which continues to function actively since 2023, is to unite all Azerbaijani readers on a single platform.

Students and library staff listened to the presentation with interest.



# "AIESEC AZƏRBAYCAN" "XƏZƏR"DƏ

# "AIESEC AZERBAIJAN"AT KHAZAR UNIVERSITY





*Nizami Baxşəliyev*

*Nizami Bakhshaliyev*

Mayın 5-də Karyera Mərkəzinin təşkilatçılığı ilə AIESEC-in Azərbaycan nümayəndəliyi - "AIESEC Azərbaycan"ın əməkdaşı və fəalları Xəzər Universitetində oldular. Tədbirdə Lokal Komitə üzrə Marketinq Departmentinin rəhbəri Nizami Baxşəliyev "AIESEC Azərbaycan" haqqında ümumi məlumat verdi.

AIESEC təşkilatı hazırda dünyanın 110 ölkəsində 1300-dən çox universitetin 38 min tələbə və məzunlarını əhatə edən, BMT-də məsləhətçi statusu olan ən böyük tələbə təşkilatıdır. AIESEC gənclərin şəxsi və professional inkişafına istiqamətlənmiş bütün təşəbbüslərini müxtəlif təhsil və təlim layihələri, müxtəlif ölkələrdə təşkil olunan konfranslar və beynəlxalq tələbə mübadiləsi proqramlarından istifadə edərək dəstəkləyir və gələcək inkişafına çalışır.

Azərbaycan Respublikasının AIESEC beynəlxalq təşkilatına üzvlüyünün əhəmiyyətini nəzərə alaraq, gənclərin inkişafına kömək məqsədilə nümayəndəlik bu beynəlxalq təşkilata 2006-cı ildə Gənclər və İdman Nazirliyinin dəstəyi ilə üzv olub, 2009-cu ildə isə "AIESEC Azərbaycan" – beynəlxalq stajkeçmə proqramı tam hüquqlu üzv statusu əldə edib.

Sonra tələbələrə beynəlxalq stajkeçmə proqramları - "Global Talent","Global Teacher" və "Global Volunteer" layihələri haqqında məlumat verildi. "Global Talent" layihəsi dünya miqyasında müxtəlif sahələrdə təcrübə və mübadilə proqramları təklif etməklə tələbələrə peşəkar inkişaf imkanları yaradır. "Global Teacher" layihəsi xaricdə təhsil imkanları təmin etməklə təhsilin keyfiyyətini yüksəltmək məqsə-

On May 5, under the organization of the Career Center, the employees and activists of "AIESEC Azerbaijan" visited Khazar University. The head of the Marketing Department of the Local Committee, Nizami Bakhshaliyev, gave general information about "AIESEC Azerbaijan" at the event.

AIESEC is currently the largest student organization with consultative status at the UN, covering 38,000 students and graduates of more than 1,300 universities in 110 countries. AIESEC supports all initiatives aimed at the personal and professional development of young people using various educational and training projects, conferences organized in different countries and international student exchange programs and strives for their further development.

Taking into account the importance of the membership of the AIESEC international organization of the Republic of Azerbaijan, the Azerbaijani representative office joined this international organization in 2006 with the support of the Ministry of Youth and Sports in order to promote the development of young people, and in 2009," AIESEC Azerbaijan " – International Internship Program gained full-fledged member status.

Then students were informed about international internship programs - "Global Talent", "Global Teacher" and "Global Volunteer" projects. The" Global Talent " Project provides students with professional development opportunities by offering internships and exchange programs in various fields worldwide. The "Global Teacher" project aims to improve the

di daşıyır. "Global Volunteer" BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üzərində əsaslanmış könüllü təcrübə proqramıdır. Proqramda iştirak edərək beynəlxalq komandada işləmək və praktiki təcrübə qazanmaq mümkündür.

Tədbir zamanı layihə iştirakçıları bu proqramlara cəlb olunmaları ilə bağlı öz təcrübələrini və fikirlərini bölüşüblər. Vəfa Balakişiyeva özünün Polşa səyahəti üçün niyə bu ölkəni seçdiyi, hansı təcrübələr qazandığı haqqında danışdı. Digər iştirakçı Nərmin Dibirova Şri-Lankada turizm sahəsində təcrübəsi barədə təəssüratlarını bölüşdü.

Nümayəndələr "Global Host" layihəsi ilə də tələbələri tanış etdilər, Səbinə Yusubova onlara qəbul şərtləri haqqında ətraflı məlumat verdi.

Sonda tələbələrin sualları cavablandırıldı.



*Səbinə Yusubova* *Sabina Yusubova*



*Nərmin Dibirova* *Narmin Dibirova*

quality of education by providing study opportunities abroad. Global Volunteer is a volunteer experience program based on the UN Sustainable Development Goals. By participating in the program, it is possible to work in an international team and gain practical experience.

During the event, the project participants shared their experiences and views on their involvement in these programs. Vafa Balakishiyeva spoke about why she chose this country for her Polish trip, what experiences she gained. Another participant Narmin Dibirova shared her impressions of her experience in the field of tourism in Sri Lanka.

Representatives also introduced the students to the" Global Host " project, Sabina Yusubova gave them detailed information about the admission conditions.

At the end, students ' questions were answered.





*Vəfa Balakişiyeva*
*Vafa Balakishiyeva*



*Akkan Suver, Hamlet İsaxanlı, Mahmut Saklı*
*Akkan Suver, Hamlet Isakhanli, Mahmut Sakli*

# MƏRMƏRƏ STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

# MEETING WITH MARMARA STRATEGIC AND SOCIAL RESEARCH FOUNDATION MANAGEMENT

Mayın 6-da Bakıdakı "Planet" restoranında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, ilə Mərmərə Strateji və Sosial Araşdırmalar Vəqfinin başqanı Dr. Akkan Suver və vəqfin İdarə Heyətinin üzvü Mahmut Saklı arasında görüş keçirildi. Görüşdə qonaqlar da iştirak edirdilər. Tərəfləri maraqlandıran məsələlər müzakirə olundu.

Sonda Dr. Akkan Suver Hamlet İsaxanlıya və İradə Xəlilovaya hədiyyə təqdim etdi.

On May 6, a meeting was held at "Planet" restaurant in Baku between the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the rector of the university, associate professor Irade Khalilova, and the director of Public Relations and Media, Alovsat Amirbeyli, with the president of the Marmara Strategic and Social Research Foundation Dr. Akkan Suver and Mahmut Sakli, a member of the board of the foundation. The guests attended the meeting as well. Issues of interest to the parties were discussed at the meeting.

In the end Dr. Akkan Suver presented a gift to Hamlet Isakhanli and Irade Khalilova.

*http://www.marmaragrubu.org/drakkan-suver-hazar-universitesinin-rektoru-ve-yonetim-kurulu-baskaniyla-gorustu*



*"Caspian Club"ın Türkiyədəki təmsilçisi Süleyman Məcidli, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Məhəmməd Əkbərov, Akkan Suver, İradə Xəlilova, Mahmut Saklı, iş adamı Hüseyn Kefsiz, Əlövsət Əmirbəyli*

*"Caspian Club" representative in Türkiye Suleyman Majidli, Baku Grave Crimes Court judge Muhammad Akbarov, Akkan Suver, Irada Khalilova, Mahmut Sakli, businessman Huseyn Kefsiz, Alovsat Amirbeyli*

# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM EDİLİB

# FACULTY MEMBER OF KHAZAR UNIVERSITY PRESENTED WITH PHD DIPLOMA


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
28.04.2023-cü il TARİXLİ
QƏRARI İLƏ
Qardaşxan Nəhmət oğlu Əzizxanlıya
(adı, atasının adı, soyadı)
5716.01 - Azərbaycan ədəbiyyatı İXTİSASINDA
(ixtisasın şifri və adı)
filologiya elmləri ELM SAHƏSİ ÜZRƏ
(elm sahəsinin adı)
FƏLSƏFƏ DOKTORU
ELMİ DƏRƏCƏSİ VERİLMİŞDİR
SƏDR: (imza) Famil Mustafayev (adı, soyadı)
BAŞ ELMİ KATİB: (imza) Gülarə Tağı-zadə (adı, soyadı)
M.Y.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 28 aprel 2023-cü il tarixli qərarı ilə Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlıya filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir

Fəlsəfə doktoru diplomu Q. Əzizxanlya mayın 8-də təqdim edilmişdir.

By the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated April 28, 2023, Gardashkhan Azizkhanli, the lecturer of the Department of Languages and Literature of Khazar University, was awarded the degree of Doctor of Philosophy in Philology.

Doctor of Philosophy diploma was presented to G.Azizkhanli on May 8.

## "XƏZƏR"İN TƏLƏBƏSİ ESTONİYA HƏYAT ELMLƏRİ UNİVERSİTETİNDƏ

## KHAZAR UNIVERSITY STUDENT AT ESTONIAN UNIVERSITY OF LIFE SCIENCES

Xəzər Universitetinin Baytarlıq təbabəti ixtisasının üçüncü kurs tələbəsi Nika Varlamova "Dayanıqlı istehsal və istehlak üçün xoşbəxt heyvanlar" (Happy animals for sustainable production and consumption - HAnimSPAC) layihəsi çərçivəsində aprelin 17-21-də Estoniyanın Tartu şəhərində Estoniya Həyat Elmləri Universitetində keçirilmiş BOVA "Comparative animal welfare and practical assessment" adlı tam maliyyələşmiş interaktiv kursda iştirak edib.

"Baltik Dənizi Regionunda Akademik Əməkdaşlıq" ("Academic collaboration in the Baltic Sea region") üzrə Sosial İnnovasiya (SI) proqramı tərəfindən maliyyələşdirilən HAnimSPAC layihəsinin icraçısı İsveç Kənd Təsərrüfatı Elmləri Universitetidir.

Kurs 3 hissədən ibarət olmuşdur: 1-ci hissədə tələbələr heyvan rifahına aid sərbəst mövzuda təqdimat hazırlamış, 2-ci hissədə "Heyvan rifahı nə deməkdir və necə qiymətləndirilməlidir", "Kənd təsərrüfatı heyvanlarının rifahı", "Daşınma zamanı qaydalar", "Zooparkda saxlanan heyvanların rifahı" və s. mövzularda mühazirələr dinlənilmişdir. 3-cü hissədə isə zoopark, fermalar və heyvanların qayğı mərkəzinə ekskursuyalar təşkil edilmişdir. Sonda tələbələr onlara verilmiş məlumatlar əsasında yekun təqdimat işi hazırlamış və heyvan rifahı ilə bağlı aktual məsələlər geniş müzakirə olunmuşdur.

Qeyd edək ki, Nika Varlamova interaktiv kursda iştirak hüququ qazanan azsaylı tələbələrdən biridir. Kursu uğurla bitirən hər tələbə sertifikatla təltif olunmuş və 3 kredit əldə etmişdir.

Nika Varlamova, the third-year student of Veterinary Medicine at Khazar university, took part in a fully funded interactive course BOVA "Comparative animal welfare and practical assessment", held at the Estonian University of Life Sciences in Tartu, Estonia on April 17- 21, within the framework of the project "Happy animals for sustainable production and consumption - HAnimSPAC".

The executor of the HAnimSPAC project, funded by the Social Innovation Program on "Academic collaboration in the Baltic Sea region", is the Swedish University of Agricultural Sciences.

The course consisted of 3 parts: in the 1st part, students prepared a presentation on the free topic of animal welfare, in the 2nd part, lectures were given on "What does animal welfare mean and how should it be evaluated", "Welfare of farm animals", "Rules during transportation", "Welfare of animals kept in the zoo" et c. In the 3rd part, excursions to the zoo, farms and animal care center were organized. In the end, the students prepared a final presentation based on the information given to them, and actual issues related to animal welfare were widely discussed.

Note that Nika Varlamova is one of the few students who won the right to participate in the interactive course. Each student who successfully completed the course was awarded with a certificate and received 3 credits.

## PROREKTOR U-TRAIN LAYİHƏSİNİN AÇILIŞ TOPLANTISINDA

## VICE-RECTOR AT THE KICK OFF MEETING OF U-TRAIN PROJECT

Aprelin 24-26-da İsveçdə "Müharibə dövründə və ondan sonra onlayn dərs keçmək üçün təlim" (U-Train) birgə layihəsinin açılış görüşü keçirilmişdir.

Layihə Stokholm Universiteti, Xəzər Universiteti, İvan Franko adına Lvov Milli Universiteti və Ukraynanın distant təhsil sistemindən ibarət konsorsium əsasında hazırlanıb.

Təşəbbüs Ukrayna ali təhsil müəssisələrinin müəllimlərini müharibə zamanı və sonrasında onlayn kursların hazırlanması və aparılması ehtiyaclarını nəzərə alan xüsusi bir təlim yolu ilə dəstəkləməyə yönəlmişdir.

Görüşün Stokholm Universiteti tərəfindən təşkil edilən bir neçə mobil tədbirlə eyni vaxta düşməsi və layihə ilə bağlı müzakirələrin Aberdin Universiteti, Portsmut Universiteti və Altınbaş Universiteti nümayəndələrinin də iştirakı ilə aparılması səmərəli olmuşdur.

Xəzər Universitetini layihənin ilkin tədbirinin bütün sessiyalarında iştirak edən Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora təmsil etmişdir.

On 24-26 April the comprehensive kick-off meeting of the joint project "Training to Teach Online in Wartime and After" (U-Train) was held in Sweden.

The project is operationally designed around a strong consortium that involves Stockholm University, Khazar University, Ivan Franko National University of Lviv, and Ukrainian Distance Learning System.

The initiative aims at supporting teachers of Ukrainian higher education institutions through a specific way of training that addresses their needs in regards of design and delivery of online courses during wartime and beyond.

In a highly positive way for the U-Train, its kick-off meeting also coincided with a few mobilities hosted by Stockholm University, and the project-associated discussions had effectively benefited from the involvement of representatives from the University of Aberdeen, the University of Portsmouth, and Altınbaş Üniversitesi. Khazar University was represented by Vlad Vernygora, Vice-Rector for International Affairs, who contributed to all sessions of the project's initial event.

## BEYNƏLXALQ ƏLAQƏLƏR OFİSİNİN KOORDİNATORU SAN ANTONİO KATOLİK UNİVERSİTETİNDƏ

## COORDINATOR OF INTERNATIONAL RELATIONS OFFICE AT CATHOLIC UNIVERSITY OF SAN ANTONIO

Xəzər Universiteti Beynəlxalq əlaqələr ofisinin koordinatoru Arzu Bədəlova Erasmus+ İşçi Heyətinin Mübadiləsi (KA107) layihəsi çərçivəsində aprelin 24-28-də İspaniyanın Murcia şəhərində San Antonio Katolik Universitetində səfərdə olub.

Səfərin ilk günü San Antonio Universitetinin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən proqramda iştirak edən universitet nümayəndələrinin tanışlıq məqsədilə görüşü keçirilmiş və Murcia şəhərinin tarixi və mədəni abidələrinə ekskursiya təşkil olunmuşdur.

Növbəti iki gün ərzində iştirakçılar təmsil etdikləri universitetlər barədə təqdimatla çıxış etmişlər. Tədbirin son günü onlar San Antonio Universitetinin Cartagena ərazisində yerləşən kampusunda olublar.

Arzu Bədəlova səfər çərçivəsində Xəzər Universitetinin Biznesin idarəçiliyi ixtisasının ikinci kurs tələbəsi Əzizə Mustafayeva ilə də görüşmüşdür. Qeyd edək ki, Əzizə Mustafayeva hazırda San Antonio Katolik Universitetində yaz semestri ərzində Erasmus+ Tələbə Mübadiləsi Proqramı daxilində təhsil alır.

Qeyd edək ki, proqramda Xəzər Universiteti ilə bərabər Tbilisi Dövlət Universiteti, Krok Universiteti, İliya Dövlət Universiteti, Varşava Universiteti və s. universitet nümayəndələri iştirak etmişlər.

Arzu Badalova, coordinator of Khazar University International Relations office, paid a visit to San Antonio Catholic University in Murcia, Spain on April 24-28 as part of the Erasmus+ staff exchange (KA107) project.

On the first day of the visit, the International Relations Department of the University of San Antonio held a meeting with the representatives of the universities participating in the program to get to know them and organized an excursion to the historical and cultural monuments of Murcia.

Over the next two days, the participants made presentations about the universities they represent. On the last day of the event, they visited the campus of the University of San Antonio in Cartagena.

During the visit, Arzu Badalova also met Aziza Mustafayeva, the second-year student of Khazar University's Business Administration major. Note that Aziza Mustafayeva is currently studying at the Catholic University of San Antonio during the spring semester within the Erasmus+ Student Exchange Program.

Along with Khazar University, representatives of Tbilisi State University, Krok University, Iliya State University, Warsaw University and other universities participated in the program.

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# HEYDƏR ƏLİYEV: MÜDRİKLİK MÜCƏSSƏMƏSİ

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarına əsasən Ulu Öndərin "Müdriklik mücəssəməsi" adlı irihəcmli kitabı "Elm" nəşriyyatı tərəfindən nəfis biçimdə nəşr edilmişdir. Əsərin elmi məsləhətçisi və ön sözünün müəllifi akademik İsa Həbibbəyli, birinci nəşrinin (1999) tərtibçisi professor Vilayət Quliyev, təkmilləşdirilmiş ikinci nəşrinin (2023) tərtibçisi isə filologiya elmləri doktoru, professor Asif Rüstəmlidir.

Topluda Ümummilli Lider Heydər Əliyevin 1969-2003-cü illərdə humanitar sahə ilə əlaqədar keçirilən qurultaylarda, konfranslarda, mötəbər məclislərdə, görüşlərdə etdiyi məruzələri, çıxışları, söhbətləri, ədiblərə ünvanladığı təbrik məktubları, jurnalistlərə verdiyi müsahibələr dörd bölmə üzrə xronoloji ardıcıllıqla yer almışdır.

Nəşrə akademik İsa Həbibbəyli "Heydər Əliyevin dövlətçilik təliminin ədəbiyyat dərsləri" adlı dolğun, səmimi, Ulu Öndərin poeziyaya bağlılığının məhrəm qatlarına işıq salan, onun ədəbiyyat haqqında incələmələrini özündə ehtiva edən geniş və mükəmməl ön söz yazmışdır.

Kitabın ilk və ən iri bölməsində Ümummilli Liderin Azərbaycan Yazıçılar Birliyinin qurultaylarında, ədiblərin yubiley tədbirlərində, abidələrinin açılışında söylədiyi nitqlər verilmişdir. "Müdriklik mücəssəməsi"nin "Görüşlər, xatirələr" adlı ikinci bölməsində Ulu Öndərin klassiklərin ədəbi irsinin yeni baxış, müstəqillik müstəvisində dəyərləndirilməsi məsələləri barədə etdiyi açıq və səmimi söhbətlər yer almışdır.

H. Əliyevin "Müdriklik mücəssəməsi" adlı seçilmiş əsərləri humanitar və ictimai elmlər sahəsində çalışan ədəbiyyat, təhsil, mədəniyyət və incəsənət işçiləri üçün mükəmməl elmi-metodoloji vəsait, dəyərli töhfədir.

# "AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏN VƏ DÖVLƏTÇİLİK MƏFKURƏSİNİN İNTİBAHI HEYDƏR ƏLİYEVDƏN – İLHAM ƏLİYEVƏ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı Heydər Əliyevdən – İlham Əliyevə" monoqrafiyası nəşr edilib. Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə ithaf olunan nəşr İnstitut Elmi Şurasının 8 fevral 2023-cü il tarixli, 1 saylı qərarı ilə çap olunub.

Kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bədii ədəbiyyatda parlaq obrazının yaradılması, müstəqil dövlətçilik ideallarının tərənnümü məsələlərindən bəhs edilib.

Monoqrafiyanın ideya müəllifi və elmi məsləhətçisi akademik İsa Həbibbəylidir. Kitabda ilk araşdırma akademik İsa Həbibbəylinin "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz" tədqiqatıdır. Elmi redaktor AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, məsul redaktor filologiya elmləri doktoru Elnarə Akimovadır.

Kitabda yer alan yazılar AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat", filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Həsənovanın "Beynəlmiləl məfkurədən milli ideyaya doğru: müasir nəsrdə Heydər Əliyev obrazı (bədii-sənədli nəsr və publisistika)", filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlının "Uşaq ədəbiyyatında və dramaturgiyada Heydər Əliyevin bədii obrazı", filologiya elmləri doktoru, dosent Əlizadə Əsgərlinin "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət", filologiya elmləri doktoru Elnarə Akimovanın "Vətən və dövlət məfkurəsinin intibahı: Heydər Əliyevdən – İlham Əliyevə" məqalələridir.

460 səhifədən ibarət olan monoqrafiya "Elm" nəşriyyatında işıq üzü görüb.

**Gülnar Səma**

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# ÇAY, QƏHVƏ VƏ KAKAO – AZƏRBAYCANDA MƏDƏNİ FENOMEN

Hamlet İsaxanlı

## Giriş

*1-ci Ümumdünya Kakao, Qəhvə və Çay Konqresi (17-20 oktyabr 2018) uğurla Çin Xalq Respublikasında keçirildi. 2-ci konqres Azərbaycan Respublikasında, Bakı şəhərində, Xəzər Universitetində baş verir (19-20 may 2022). Ümid edirəm ki, bu konqres də uğur qazanacaq, öz iştirakçılarını yeni məlumat və ideyalarla məmnun edəcək.*
*Hörmətli qonaqlar, yəqin ki, siz məruzə etmək və məruzə dinləməklə yanaşı, Bakı şəhərini gəzib görəcəksiniz, burada yeni dost və həmkar qazanacaqsınız, həmçinin gözəl çay mədəniyyəti olan ölkəmizdə çay içəcəksiniz. Qəhvə və kakao da təklif edə bilərik.*
*Xoş gəlmisiniz, əziz həmkarlar, əziz dostlar! (Konfransın açılış nitqindən).*

İnsan ömrü boyu yeyir və içir. İçki növ-növdür – adi su, çay, qəhvə, kakao, meyvə şirələri, alkohollu içkilər, süni alkoholsuz içkilər... Əsas içki sudur; susuz həyat yoxdur. Adi, içməli su ilə yanaşı insana həzz verən, insanı cəzb edən içkilər mövcuddur. Bu işkiləri, sudan fərqli olaraq, insan özü düzəldir. İçkilər hər xalqın mədəniyyətində və sosial həyatında mühüm yer tutur. Fərqli mədəniyyətlərdə fərqli içkilər ortaya çıxdı, onlar digər mədəniyyətlərə yayıldı və yarandıqları yerdən çox-çox uzaqlarda da sevildilər.

Alkohollu içkilər, xüsusilə pivə və şərab insan tərəfindən vəhşi taxıl və üzümün əhliləşdirilməsini, yəni evcilləşdirilməsini izlədi və qədim, min illərlə ölçülən tarixə malikdirlər. Eratosfenes şərabın timsalında alkohollu içkilərin təsir gücünü gözəl ifadə etmişdir: "şərab gizli olanı açığa çıxarır" (*Tom Standage. A History of the World in 6 Glasses. Bloomsbury, 2006; p. 37*). "Başı dumanlandıran" bu içkilərə qarşı "başı ayıldan" içkilər meydana çıxdı, onların sırasında qədim Çin`in cənub-qərbi və onun ətrafında meydana çıxan çay, Amerika mənşəli və qədim tarixə malik kakao və nisbətən yeni dövrün məhsulu olan Ərəbistan mənşəli qəhvə çox populyar olub, get-gedə ümumdünya şöhrəti qazandılar. Çay və qəhvənin təsadüfən necə kəşf edildiyi barədə müxtəlif rəvayətlər mövcuddur. Ritorik sual yaranır: "bu çox sevilən  alkoholsuz içkilər olmasaydı, dünyada sərxoşluq baş alıb gedərdimi?!"

# Qəhvə və kakao – haradan haraya...

Qəhvənin içki kimi 15-ci əsrdə, ərəblərdə, mümkündür ki, Yəmən`də meydana çıxdığı deyilir, 16-cı əsrin əvvəllərində Məkkə və Qahirə kimi ərəb şəhərlərində qəhvə içilir, sevilirdi, bəzən qadağan edilir, lakin bu uzun sürmürdü. Ərəblərdən həmən sonra qəhvə Osmanlı dövlətində, xüsusilə İstanbul`da yayıldı və oradan İtaliya`ya, sonra Avropa`ya keçdi. Ərəb dilindəki *qəhvə* sözü Osmanlı`da *kahve* şəkli aldı və Avropa`da *coffee, kaffee, café* kimi sözlərlə ifadə olundu.

Kakao Orta Amerika`da qədim dövrlərdən bəri sevilən içki olub, Avropa`ya kakao toxumu və isti maye şokolad şəklində gəlib. Kakao ispanlara 16-cı əsrin əvvəllərindən məlum olsa da, Avropa`da 17-ci əsrdə yayıldı. Toxumları qurudulub qovrulmuş və əzilib yağı alınmış toz şəkilli kakao suya və südə qarışdırılıb kakao adlı içkiyə çevrilir. Yağı alınmamış kakao toxumundan və ya tozundan isə şokolad alınır. Bərk şokolad isə 1850-ci ildən başlayaraq Avropa`da düzəldildi və gerçək dünya şöhrəti qazandı. Qərbi Afrika`da yerləşən Fildişi sahili (Ivory Coast və ya Côte d`Ivoire) kakao yetişdirməkdə dünya birincisidir.

Çay da, qəhvə də pivə və şərabın hökm sürdüyü Avropa`ya 17-ci əsrin əvvəllərində gəldi. 1650-70-ci illərdə İngiltərə (ilk Oxford`da), Amsterdam, Fransa və digər yerlərdə qəhvəxanalar açıldı. Qəhvə aludəçiliyi Avropa`nı bürüdü. Qəhvəxanalar şair və alimlərin, sənət adamlarının toplaşdığı məclisə, sosial, siyasi və ticari söhbətlərin getdiyi mərkəzə, qəzet oxuma yerinə, yeni xəbərlər və dedi-qodu yuvasına çevrildi. Bir sıra qəhvəxanalarda çay və kakao (isti şokolad) da içmək olurdu. Cəsarətlə demək olar ki, qəhvə evləri İngiltərə`nin (qismən də Fransa`nın) intellektual həyatını zənginləşdirdi! Qəhvənin cürbəcür xəstəlikləri müalicə etdiyi, hətta hamilə qadınların vaxtından tez doğum təhlükəsinin qarşısını aldığı kimi fikirlərlə yanaşı, onun qorxulu xəstəliklərə səbəb olduğu, buna aid guya sübutların mövcudluğu, hətta kişiləri impotent etdiyi (qəhvəxanalara gedə bilməyən qadınların uydurması) barədə söz-söhbət gəzirdi (*Aytoun Ellis. The Penny Universities; A History of the Coffee-houses. London: Decker & War-burg, 1956*). Bəzən qadağa arzusu baş qaldırsa da (məsələn, Almaniya`da ənənəvi pivəni hər şeydən üstün tutanlar tərəfindən), bundan heç nə çıxmırdı. Qadınlara qəhvə içməyi qadağan etmək istəyənlərə qarşı qəhvəni çox sevən böyük bəstəkar Johann Sebastian Bach (1685-1750) daha çox "Qəhvə kantatası" (Coffee Cantata) adı ilə tanınan "Schweigt stille, plaudert nichthttps" (Be stil stop chattering / Sakit olun, laqqırtını kəsin) kiçik komik musiqili dramını yazdı (1732-34 arasında). Əsər ilk dəfə Leipzig`də məzmuna uyğun şəkildə – qəhvə içilən bir yerdə (Coffee house) ifa olundu. (*BWV 211. Bach-Werke-Verzeichnis, a thematic catalogue of Bach's works). https://www.bachvereniging.nl/en/bwv/bwv-211)*.



*Johann Sebastian Bach*

Hollandlar və fransızlar qəhvə ağaclarını dünyaya yaymaqla ərəblərin qəhvə monopoliyasını köklü şəkildə sındırdılar. Get-gedə Cənubi Amerika`da Braziliya (Columbiya – ikinci), Asiya`da Vyetnam (İndoneziya – ikinci) qəhvə yetişdirən və ixrac edən əsas ölkələr oldular.

Rusiya hökmdarı 1-ci Pyotr (Пётр, 1672-1725) Hollandiya`da qəhvəni çox sevdi (1797), Rusiya`da ilk qəhvə evləri onun zamanında açıldı. 18-ci əsrdə qəhvə Rusiya`da kübar içki idi, 19-cu əsrdə isə geniş yayıldı, lakin çaya rəqib olmaq səviyyəsinə qalxmadı. Rusiya`da 19-cu əsrin əvvəllərində

Avropa`ya baxan kübarlar çay içməyə başladılar. 1877-ci ildə Rusiya`da əsgərlərin yeməyinə çay əlavə edildi. 1882-ci ildə Sankt-Peterburq`da sadə xalq üçün ilk «чайная» (çayxana və ya çay otağı) açıldı. Rusiya`da indi, deyilənə görə, artıq qəhvə çaya meydan oxumaqdadır.

## Çay: Çindən başlayan dünya səyahəti

Uzun müddətdir ki, sudan sonra ən çox içilən içki çaydır. Bitki və çiçəkləri, eləcə də bəzi giləmeyvələri suda qaynadıb müalicə üçün, yəni tibbi bitki / medical plant kimi istifadə etmək, yəqin ki, ən qədim zamanlara gedib çıxır. Buna bitki və çiçək çayı (herbal tea) demək olardı. Bu növ çaylar, yəqin ki, çox qədim zamanlardan keçib gəlmişlər. İçdiyimiz qara və yaşıl çayın vətəni Çin`dir. Çin`də çayın tarixi çox-çox qədimlərə gedib çıxır. Çay bitkisi qədim Çin`də əhliləşdirilmiş, çay yetişdirmək işi başlanılmışdır. Çay da əvvəlcə müalicə məqsədilə işlənilmiş, çay yarpaqlarını çeynəmiş və yemişlər. Sonda çay çox populyar içkiyə çevrildi. Çin`də çayı hətta pul kimi işlətmişlər. 8-ci əsrdən başlayaraq Çin`də çay haqqında ətraflı məlumat verən çoxsaylı kitablar yazılmışdır. 6-cı əsrdən bəri yaponlar da çay içməyə və sonra çay yetişdirməyə başlamışlar. Yaponların maraqlı, qeyri-adi, cazibəli və mistik bir çay içmə mərasimi ("ça-no-yu") mövcuddur.

Çay Çin`dən İpək yolu ilə yayılmış, yəqin ki, Orta Asiya, İran və Qafqaz`a bu yolla gəlib çatmışdır. Orta Asiya`da hazırda qara çay da, yaşıl çay da içilir. Lakin çayın dünyaya tam yayılması avropalıların işidir. Avropa`da Çin`dən çay gətirmə ticarəti başlandı. Tezliklə Avropa ilk gələn yaşıl çayı deyil, qara çayı sevdi. İngilislər 18-ci əsrdə qara çayı şəkər və südlə içməyə başladılar, çayın vətəni olan Çin`də bu adət yoxdu. Avropa`lılar yaşıl və qara çayın eyni bitkidən alındığını bilmir, onları fərqli botanik bitki növü sayırdılar. Dünyada tükətilən çayın 75%-dən çoxu qara, 15%-ə yaxını isə yaşıl çaydır.

Çin`də çayın fərqli bölgələrdə fərqli adı vardı, *Ç`a* (*Cha, chai*) və *t`e* (*te, tea*) adları Avropa`ya və Asiya`ya müxtəlif yollarla, fərqli xalqlar vasitəsilə gəldi və buna görə çay bir sıra ölkələrdə çay və ya ona yaxın adlar (Portuqaliya, Rusiya, Orta Asiya, Yaxın Şərq...), digərlərində *te* (Hollandiya, İspaniya, İngiltərə,...) və ya ona yaxın adlar aldı.

İngilislər Hindistan`da çay yetişdirilməsi işinə girişdilər, Çin`dən toxum gətirib Çin üsulu ilə əkib becərdilər, nəticədə Hindistan böyük çay ölkəsinə çevrildi. Hind çayı, Seylon / Ceylon çayı arzu olunan çay növləri kimi tanındılar. Çayı təbii şərtlərin imkan verdiyi hər yerdə yetişdirməyə girişdilər. Dadına, qoxusuna, rənginə becərilmə və emal texnologiyasına (oksidləşmə, fermentləşmə,...) görə cürbəcür, hər zövqü oxşaya bilən çay növləri mövcuddur.

Çayın əkilməsi, bəslənməsi, dərilib istifadə üçün işlənməsi müxtəlif ölkələrdə milyonlarla insana iş yeri yaratdı və milyardlarla insanın içib həzz almasına imkan verdi.

## "Bir fincan gözəl çay"

Əvvəlcə Avropa`da qəhvə ucuz, çay çox baha idi (17-ci əsr). Çay ən çox İngiltərə`də yayıldı, demək olar ki, milli içkiyə çevrildi. 18-ci əsrin ortalarına yaxın çay elə ucuzlaşdı ki, hamı hər zaman çay içə bildi. London`da çay bağçaları deyilən parklar əmələ gəldi; bu parklar qadın və kişilərin görüş yerinə döndü. 18-19-cu əsr ingilis ədəbiyyatı çay ətrafı görüşləri özündə geniş əks etdirir. Çayın zərərli olduğu, onun qadağan olunmasının zəruriliyi barədə yazanlar da vardı. 18-ci əsrin ortalarında çay ucuzlaşdı. Kübarların içkisi sayılan çay ən adi, gündəlik, sudan sonra ən ucuz içki halına gəldi və xalq içkisi oldu. Çay Çin`də doğuldu, sevildi, amma çayın dünyaya yayılan dastanını İngiltərə imperiyası yazdı.

Yorğunluğu çıxarmaq, iş qabiliyyətini bərpa etmək və bir qədər nəşələnmək üçün çay və qəhvə universal xoş içkilərdir. Çay, qəhvə və şokoladı həm qloballaşmanın nəticəsi, həm də qloballaşma göstəriciləri kimi saymaq, qiymətləndirmək olar. Adambaşına çay istehlakına (tükətiminə) görə Türkiyə dünyada birincidir, onu sıra ilə İrlandiya, Böyük Britaniya və Rusiya izləyirlər. (*https://worldpopulationreview.com/country-rankings/tea-consumption-by-country*). Azərbaycan kimi ölkələri bu baxımdan ölçməmişlər; ölçülsə, o, zənnimcə, irəlidə gedən ölkələrdən çox geridə qalmazdı.

Çay şair, yazıçı və rəssamların ifasında ədəbiyyat və təsviri incəsənətdə geniş yer tutdu. İngilis

yazıçı George Orwell (1903 - 1950) "Bir fincan gözəl çay" (*George Orwell. "A Nıce Cup of Tea". Evening Standard, London, 12 January 1946. Reprinted in 'The Collected Essays, Journalism and Letters of George Orwell'. David R. Godine, Publisher, 1968*) adlı yazısında gözəl çayın nəyə deyildiyi barədə fikir söyləyir, çayın növləri (Hind və Seylon çayına üstünlük verir), çayın tündlük dərəcəsi (tünd yaxşıdır deyir), isti saxlamağın vacibliyini vurğulayır. Südü çayın üstünə süzmək lazımdır, ya çayı südün üstünə?! Müəllif İngiltərə`də "dərin" müzakirə olunan bu suala münasibət bildirir: "süd çayın üstünə! O, çayı gözəl edən xüsusiyyətləri ("qızıl" saydığı qaydalarını) bir-bir sayıb şərh edir.



George Orwell

"Bir fincan mükəmməl çay üçün mənim öz reseptimi nəzərdən keçirəndə, ən azı 11 əlamətdar məqam tapıram,… qızıl hesab etdiyim 11 qayda". Müəllif sonuncu – 11-ci qaydasını belə ifadə edir: "…Çayı – onu rus üslubunda içənləri istisna etməklə – şəkərsiz içmək lazımdır. Mən çox yaxşı bilirəm ki, mən burada azlıqdayam. Amma yenə də çayın içinə şəkər qoyub onun rayihəsini məhv edirsənsə, özünü necə əsl çay həvəskarı adlandıra bilərsən? Çayın içinə bibər və ya duz qoymaq eyni dərəcədə ağlabatan olardı. Pivənin acı olması kimi çay da acı olmalıdır. Onu şirinləşdirsəniz, artıq çayın dadına baxmırsınız, sadəcə şəkərin dadına baxırsınız; şəkəri adi qaynar suda həll etməklə də çox oxşar içki hazırlaya bilərsiniz".

(*"When I look through my own recipe for the perfect cup of tea, I find no fewer than 11 outstanding points...11 rules, every one of which I regard as golden". The author expresses last - 11th rule in this way: "... Tea - unless one is drinking it in the Russian style - should be drunk without sugar. I know very well that I am in a minority here. But still, how can you call yourself a true tea-lover if you destroy the flavour of your tea by putting sugar in it? It would be equally reasonable to put in pepper or salt. Tea is meant to be bitter, just as beer is meant to be bitter. If you sweeten it, you are no longer tasting the tea, you are merely tasting the sugar; you could make a very similar drink by dissolving sugar in plain hot water"*).

## Azərbaycanda çay

19-cu əsrdə bir neçə dəfə Rusiya`nın cənub vilayətlərində çay yetişdirmə işini təşkil etmək, uyğun sayılan yerlərdə çay plantasiyası salmaq cəhdi edildi. Əsrin son onilliyində Gürcüstan və Azərbaycan`da bu işi başladılar. Lakin, geniş çay plantasiyalarının salınması, çay təsərrüfatı və çay fabriklərinin planlı şəkildə qurulması sovet dövrünə təsadüf edir. Çay əkin sahələrinin böyüklüyünə və çay istehsalının həcminə görə Gürcüstan birinci, Azərbaycan ikinci, Krasnodar üçüncü çay mərkəzi kimi tanındı. Azərbaycan`da çay plantasiyaları əsasən cənub subtropik məkanda – Lənkəran və onun ətrafında və az miqdarda şimalda – Zaqatala`da salındı. Beləliklə, Qafqaz həm də çay yetişdirmə diyarına çevrildi. Sovetlər dağılanda çay yetişdirmə işi iflasa uğradı – xüsusilə Gürcüstan`da. Azərbaycan`da çay yetişdirmə və satış işində dirçəliş baş verdi – belə demək mümkündür.

Azərbaycan`da qəhvə və kakao da içilir, lakin həm içmə miqdarına görə, həm mədəni fenomen kimi onlar çayla yarışa bilmirlər, hərçənd ki, məişətdə və ictimai həyatda qəhvə get-gedə yer tutmağa başlayır. Azərbaycan`da içkilərin başında çay gəlir. Məclislər çay içməklə başlayır, çayla bitir. Çay məclisi və ya çay süfrəsi elə-belə deyil, xüsusi dəstgah şəkli almışdır. Çay xüsusi dəmlənir, samovar çayının xüsusi dadından danışılır. Çay ədəbiyyatda, mahnı janrında, film və televiziyada geniş şəkildə görünür, tərənnüm olunur. Azərbaycan çay ənənəsi qara (qırmızı) çay üzərində qurulsa da, yaşıl, sarı rəngli çaylar, həmçinin bitki (herbal) çayları, məsələn, kəkotu, nanə, zəncəfil çayları, giləmeyvə çayları içilməkdədir.



*Lənkəran çay plantasiyası*

**Əslində çay, qəhvə və kakao Azərbaycan`da qədim tarixə malik olmayan içkilərdir. Əsasən qara çay geniş yayılmışdır. Çay sözü Azərbaycan`a məhz Rusiya vasitəsilə və qara çayla gəlmişdir (və o, dilimizdə artıq mövcud olan və axar suyu bildirən çay sözü ilə eyni yazıldı və səsləndi).**

**Çay şəkərlə (qəndlə) və ya cürbəcür, növ-növ mürəbbələr /jams, şirniyyatlar (milli və beynəlxalq), bal, şokolad, limon və konfetlərlə /candies içilir. Çayın ümumxalq içkisinə çevrildiyi Azərbaycan`da çayxana adlı xüsusi yerlər – xalqın məmnuniyyətlə oturub çay içdiyi, çay içə-içə söhbət etdiyi, bəzən**



*Zaqatala çay plantasiyası*

**nərd oynadığı ictimai yerlər mövcuddur. İnsanlar bir-biriilə çayxanalarda görüş təyin edir, oturub dərdləşir və ya şənlənirlər.**

# Samovar və çay dəstgahı



*Bakı`da çayxana (1888 - ci il)*

Çayın hazırlanması və içilməsi üçün işlənilən xüsusi ləvazimat, əşya və qablar məişətdə mühüm yer tutur. "Çay qoyun" ifadəsi çay hazırlayın deməkdir. Ənənəvi çay qoymaq, çay hazırlığı samovardan başlayıb. Samovar rus sözüdür, «сам» ("sam") – "özü" deməkdir, "var" isə «варить» (varit`) – "qaynatmaq" ifadəsindən qısaldılmışdır; beləliklə, samovar sözü "özü qaynadan" /"self-brewer" mənası verir. Samovar od tökmək və su saxlamaq yeri olan, qaynanmış suyu kənara çıxarmaq lüləsinə malik qurğulara qədim dünyada rast gəlinsə də, çağdaş samavar (samovar) Rusiya`da hazırlandı, 18-ci əsrin ortalarında Tula şəhərində və digər yerlərdə samavar fabrikləri quruldu, bir əsr sonra Tula`da ildə yüz mindən artıq samavar istehsal olunurdu. Samavar ən azı Rusiya`da, Rusiya ətrafı bir sıra ölkələrdə və müsəlman şərqində hər evdə zəruri məişət alətinə çevrildi. Samavar həm də evin bəzəyi oldu! Evdən samavar səsinin gəlməsi evin rifahı, rahatlığı rəmzinə çevrildi.

> **Qeyd.** *Rusca yazılışına uyaraq Azərbaycan türkcəsində "samovar" kimi yazılış şəkli qəbul olunsa da, deyilişə, səslənməyə uyğun gələn "samavar" şəkli də təbiidir. Türkiyədə isə "semaver" yazılır.*

*Samavar* təmiz suyun çay düzəltmək üçün qaynadılmasını təmin edir. Samavarın ortasında yerləşmiş silindr şəkilli borunun içinə kömür, ağac qırıntıları doldurub yandırır və ya hazır köz tökürlər. Bu borunun aşağısındakı kiçik deşiklərdən hava daxil olur.

**Doldurma və yanmanı tənzimləmək üçün *maşa* adlı ikiqollu alətdən istifadə olunur. Yananda tüstü çıxdığına görə həmin yanma borusunun üst ucuna *tüstü bacası* (tüstüçəkən boru - lülə) taxılır ki, tüstü çıxsın və yanma normal şəkildə davam etsin. Kömür-od samavarı ilə yanaşı elektrik samavarları da geniş yayılmışdır.**



*Samavar*



*Maşa*



*Tüstü bacası*

**Azərbaycan\`da samavara, hətta çay süzmə prosesinə heykəllər qoyulmuşdur (Lənkəran və Xaçmazda).**



*Lənkəranda samavar heykəli*



*Xaçmazda samavar heykəli*

**Samavar süfrəyə gətiriləndə onu birbaşa masa üstünə deyil, masa üstünə qoyulmuş məcməi\`nin (sini, padnos) üstünə qoyurlar.**

***Çaydan*** **– samovarı əvəz edən, yəni təmiz suyun çay üçün qaynadıldığı daha sadə qabdır.**

***Çaynik*** **– çayın dəmləndiyi və samovar qədər sevilən bəzəkli əşyadır. Çaynikdə dəmlənmiş rəngli qatı çayı stəkan və ya fincana süzüb, üstünə qaynar su (samavardan və ya çaydandan) əlavə etməklə stəkanda çay hazır olur və içmək üçün təqdim edilir.**

**Qeyd.** ***Azərbaycan türkcəsində, "stəkan" əvəzinə ümumiyyətlə "istəkan" və ya "istəkən" deyilir və bəzən də yazılır.***

**Çox müxtəlif növ, müxtəlif şəkilli stəkanlar mövcuddur. Azərbaycan\`da armudu stəkan çox populyardır.**



Məcməidə samavar





Çaydanlar



Armudu stəkan



Çaynik

***Stəkan*** **sözünün Azərbaycan`a samavar, çaynik kimi sözlərlə birlikdə rus dilindən gəldiyi düşünülməkdədir, hərçənd ki, əksi doğru imiş - stəkan sözünün ruscaya türkcədən, daha doğrusu, çağataycadan, "ağac kasacıq" («деревянная мисочка») mənası verən "tostakan" sözündən gəldiyi**





Stəkanaltı



Çay dəsti

deyilir (*Макс Фамер. Этимологический словарь русского языка. Перевод с немецкого и дополнения О. Н. Трубачева. Москва: Издательство «Прогресс», 1971. Том III, с. 743*). Armudu stəkanda qaynar çay sürətlə deyil, aramla, yavaş-yavaş soyuyur. *Stəkanaltı* (podstakannik) gümüş və ya misin nikel və digər metallarla qarışığından düzəldilən, əl ilə tutmaq yeri olan bəzəkli qabdır, stəkan onun içinə qoyulur. Çay dolu stəkan adətən nəlbəkinin üstündə oturmuş şəkildə və ya stəkanaltının içində verilir. Bəzi bölgələrdə *nəlbəki* əvəzinə *bölmə* deyirlər. Xüsusi çini / porcelain *çay dəstləri* – çaynik, fincanlar, nəlbəkilər, kiçik sinilər (məcməilər), şəkər qabı və çay qaşıqlarından ibarət komplekt evlərin bəzəyi sayılır.

## Qədəhlərə çay süzün

Azərbaycan xalq mahnılarında çayla bağlı ləvazimatlara, o cümlədən samavar və maşaya müraciət edilir. Məsələn:

*Samavarı alışdırın,*
*Maşa verin qarışdırın.*
*Yarım məndən inciyibdir,*
*Onu mənlə barışdırın.*

Və ya "Küçələrə su səpmişəm" adlı məşhur xalq mahnısında samovar, stəkan və qənd ortaya girir:

*Samavara od salmışam,*
*İstəkənə qənd salmışam,*
*Yarım gedib tək qalmışam,*
*Nə əzizdir yarın canı,*
*Nə şirindir yarın canı...*

Bəstəkar Emin Sabitoğlu`nun Zeynal Cabbarzadə`nin sözlərinə bəstədiyi şux "Çay mahnısı" ["Kimin ağrıyır canı, Bol (Qoy) çay içsin mərcanı..."] Şövkət xanım Ələkbərova`nın ifasında çox populyar oldu. Eyni sözləri bəstəkar Cahangir Cahangirov`un Seyfəddin Dağlı`nın sözlərinə bəstələdiyi zarafat dolu "Çayçı" mahnısı ("Tez düzün qədəhləri, Tez düzün, Çay süzün qədəhlərə, Çay süzün...") və onun Mirzə Babayev tərəfindən ifası barədə də demək olar. Mahnının dost gülüşü doğuran yumoru qonaqlara onların istəyinə görə çaynikdə çay deyil, çayla eyni rəngdə olan konyak verilməsi üzərində qurulmuşdur. Bu, olan hadisədən qaynaqlanmışdır (*https://modern.az/read/40337/*).



Xaçmaz`da çaynik heykəli

Azərbaycan türkcəsində çayla bağlı ifadə və deyimlər mövcuddur. Kənd yerində işlənən "çay tök" ifadəsi, sən demə, kobud imiş, "çay süz" demək daha mədəni deyiliş sayılırmış... Bir yerə gedib orada yaxşı qarşılanmayan şəxs "Allahın çayını da vermədilər" deyir, axı gələnə çay vermək sanki mütləqdir, adamdan xoşun gəlməsə də yanına gəlibsə, ona çay təklif etməlisən... İşdən boyun qaçırıb vaxtını

çayxanada keçirən şəxsləri, xüsusilə, kəndlərdə əkin sahələrində işləməkdən qaçanları məzəmmət edən "Çayxana dolu – sahə boş" ifadəsi işlənilir. Nə qədər çay içmək olar? Fikirlər müxtəlifdir: "Çayın biri qaydadır, ikisi cana faydadır, üçü nəsdi, dördü bəsdi, çıxdın beşə vur on beşə, çay nədir, say nədir?!"

Həkimlər ürəyində ağrı olan şəxslərə adətən çox çay içməyi məsləhət görmürlər. Böyük dramaturq, şair və yazıçı Cəfər Cabbarlı haqqında onun həyat yoldaşı Sona xanımın xatirələrində maraqlı bir epizoda rast gəlinir (*Sona Cabbarlı. Onu kim unudar?!. "Xan" xatirə ədəbiyyatı silsiləsi. "Xan" nəşriyyatı, Bakı, 2018; s. 55*). "Cəfər həmişə işləyəndə çoxlu çay içərdi. Bu onun ürəyinə zərər idi. Bir dəfə ona dedim ki, ay Cəfər, çayı az iç, bağ yeridir, qəndimiz azdır. Bir az sonra mən Cəfər üçün ikinci stəkanı gətirəndə o, mənə bir kağız uzatdı. Kağızda belə yazılmışdı:

*Ay Sonası, çay gətir mənimçün,*
*Qələndərəm pay gətir mənimçün.*
*Bağ yeridir, qəndi çox işlətmərəm,*
*İstəyirsən say gətir mənimçün".*



Cəfər Cabbarlı

## Çayın macəraları

İçki həyatda mühüm yer tutur və bu baxımdan hər millətin içkilərlə bağlı maraqlı, bəzən də qəribə görünə bilən adətləri olması təəccüb doğurmamalıdır. Azərbaycan`dakı ikirəngli çay fenomeni mövcuddur. Oğlan evi qız evinə elçiliyə gedir. Qız evi çay süfrəsi açır, oğlan evindən gələnlər içmir, "hə" ("həri", "bəli", "Allah xeyir versin") cavabını gözləyirlər. Müsbət cavab ikirəngli (ağ-qırmızı) çayla müşayiət olunur. İki rəng, iki gənc birləşib birgə həyata başlayacaqlar. İkirəngli çayın hazırlanması asandır – stəkana qaynar ağ su tökür və ona bir neçə qaşıq şəkər tozu əlavə edib qarışdırırlar. Sonra ehtiyatla qaşığa və qaşıqdan ağ suyun üstünə dəmlənmiş qırmızı çay tökürlər. Ağ suyun şirinliyi, yəni şəkərlə əmələ gələn sıxlığı qırmızı suyu bir müddət yuxarıda saxlayır və iki rəngli – yuxarıda qırmızı, aşağıda ağ rəngli çay alınır.



İkirəngli çay

Çay süzülmüş stəkana və ya fincana bir qədər şəkər salıb, sonra şəkərli çayı çay qaşığı ilə qarışdırıb şəkəri çay içində əritməklə *şirin çay* düzəldirlər. Adətən şirin çayı çörək və yağ və ya çörək və pendirlə birlikdə yeyib-içirlər, xüsusilə səhər yeməyi zamanı. Çayla bağlı qəribəliklərə də rast gəlinmişdir. Şair Osman Sarıvəlli bir xatirəsində (*"Səməd Vurğun xatirələrdə". "Xan" nəşriyyatı, 2016; səh. 82-85*) qorxulu zamanda baş vermiş şirin çay əhvalatına toxunub. O, görkəmli şair Səməd Vurğun`un Azərbaycan Respublikasının zəhmli rəhbəri Mircəfər Bağırov tərəfindən sıxışdırılması barədə yazmışdır. Səməd Vurğun`un başçılıq etdiyi Yazıçılar İttifaqında guya millətçilik hökm sürdüyü barədə qərar layihəsi hazırlanıb Bağırov`un yanında müzakirə edilirmiş. S. Vurğun`un gözlənilmədən müzakirəyə gəlib çıxması iştirakçıları çaşdırmış və Bağırov "verin, qərar layihəsinə baxsın" deyibmiş. Layihə ilə tanış olan S. Vurğun`un "Qərar siyasi cəhətdən çox savadsız yazılmışdır!" sözləri "bomba kimi partladı".



Səməd Vurğun

S. Vurğun`un ilk izahından sonra Bağırov tənəffüs elan etdi. "Amma Səməd Vurğun içəridə qaldı". "On beş dəqiqədən sonra bizi çağırdılar, içəri girən kimi gözümlə Səməd`i axtardım. Gördüm ki, stulda çəpəki oturub, salma çay (şirin çay – H.İ.) qarışdırır. Arxayınlaşdım. Bağırov`un rəngi açılmışdı. Özü də, yanındakılar da şirin çay içirdilər... Onun bir xasiyyəti vardı. Əgər yanına çağırdığı adamla söhbəti tutsa, mütləq salma çay verərdi..."



Mir Cəfər Bağırov

## Poetik çaynamə

Azərbaycan`da çayın tarixi müqayisədə çox uzun olmasa da, çay çox sevilir və bu sevgi özünü tək gündəlik həyatda deyil, bədii və populyar ədəbiyyatda da göstərir.

Qarabağda anadan olmuş sufi şair Mir Həmzə Nigari (Seyyid Nigari, 1805? – 1885/6) "Çaynamə" adlı 521 beytlik 18 fəsildən (bölümdən) ibarət məsnəvi yazmışdır. Sufiyanə yazılmış bu əsərin 5-ci fəsli samavarın özəlliklərindən və ya gözəlliklərindən bəhs edir. Şair samavarı içində nar (farsca: od) olan, içi eşq atəşilə yanan aşiq kimi təqdim edir. Çay gül üzlü, könül alan bir gözəldir. Samavarın içində od və su yan-yanaşı durur. Samavar coşur, yəni qaynayır, çıxardığı səs neyin səsi, buxarı isə uçan quş kimidir. Şair samavarın tərkib hissələri və çay ləvazimatı barədə poetik söhbət açır. Samavarın başına qoyulan çini dəm çaydanı taxtında oturan Çin padşahı kimidir. Samavar Simurq quşuna oxşayır, iki qulpu isə bu quşun iki qanadıdır.



Seyyid Nigari

Şair doğma Qarabağ`a xas olan çay süfrəsinin poetik təsvirini verir. Qarabağ`ın gözəlliklərini, Qarabağ gözəllərini, qarabağlıları, o cümlədən şəxsən özünü layiqincə təqdim etməyi unutmur. Seyyid Nigari Qarabağ`ın rus əsirliyindən azad olmasını arzu edir. Şair "Çaynamə"sinin sonuncu 18-ci fəslində oxucunu çay süfrəsi ətrafına dəvət edir, baş qəhrəman kimi vəsf olunan samavarla yanaşı büllur stəkanları və kasələri, şüşə nəlbəkilər və gümüş qaşıqları tərifləyir, çay süfrəsinin zəruri ünsürlərini – süd və qaymağı (!), limon suyu və

limon duzunu, şəkəri, çay süzəni yada salır, hətta limon bıçağını və şəkəri qarışdırarkən çıxan səsləri də unutmur! (*Pərvanə Bayram. "Seyyid Nigari`nin "Çaynamə" məsnəvisi" https://turuz.com/storage/shiir-2018/1984-Seyid_Nigarinin_Chayname_Mesnevi-Pervane_Bayram-11s.pdf* ).

Digər bir görkəmli qarabağlı, şuşalı musiqişünas, şair və maarifçi Mir Möhsün Nəvvab`ın (1833-1919) "Samavarın tərifi" adlı müxəmməsi 13 yaşında (1846-47?) yazdığı deyilir (*Mir Möhsün Nəvvab. Seçilmiş əsərləri. "Şərq-Qərb" nəşriyyatı, Bakı, 2006; s. 7*). Bu müxəmməsin üslubu və söz ehtiyatı 13 yaş məsələsinə şübhə ilə yanaşmağa əsas verir.

*Mərhəba qamətinə, ey büti-dövran samavar*
*Ey olan, aləm içində, rahəti-can samavar.*

beyti ilə başlayan şeirdə (*s. 108*) çay vəsf edilir, çayın faydasından danışılır, "Biləsən dünyadadır dərdlərə dərman samavar", samavarın zümzüməsi bəlli muğamlara bənzədilir (muğamlar sadalanır)...



Mir Möhsün Nəvvab

*Salgilən od, necə gör*
*başlayacaq zil ilə bəm*
*Necə gör söyləyəcək nəğmeyi-dastan samavar.*



Cəlil Məmmədquluzadə

Azərbaycanlı böyük yazıçı Cəlil Məmmədquluzadə`nin ilk qələm təcrübəsi "Çay dəstgahı" (1889) adlı mənzum alleqorik dram olmuşdur. Hadisə Zəngəzur`da baş verir. İştirakçılar: samavar, padnos (sini), çaynik, istəkan, nəlbəki, gümüş qaşıq, maşa, truba (tüstü bacası), nökər Əli. Başçı rolunu öz üzərinə götürən samavar danışır ki, xanımla xan dünən çay içib rəngsiz, ətirsiz çayda ləzzət görməyiblər və ağanın acığı tutub, "Ki, buyurdu bu gün qırsınlar bizi". Günahkarı axtarmaq lazım gəlir. Araşdırmanın aparıcıları samavar və padnosdur, samavar padnosu tərifləyir: "Olmasan sən mənim nə hüsnüm olar?". Hərə özünü tərifləyir və günahsız olduğunu bəyan edir. Sonda nökərin natəmiz olduğunu deyib onun üstünə düşsələr də, son fikir budur:

*Xanımın borcudur çayı tökmək*
*Necə xoşdur belə çayı içmək!*

## Populyar ədəbiyyatda çay, qəhvə və kakao: nə, necə, niyə?

Çay və onun əsas xüsusiyyətlərinə elmi-populyar ədəbiyyatda da yer verilmişdir. Türkiyədə (Osmanlıda) çay haqqında ilk əsəri 1878-ci ildə mütəfəkkir xəttat Seyyid Mehmed İzzet Efendi (1841-1903) yazmışdır: "Çay Risalesi". Bu kitabça yenidən latın əsaslı əlifba ilə nəşr olundu (*Seyyid Mehmed İzzet Efendi. "Çay Risalesi". Eşik Yayınları, 2014*). Çay içə-içə söhbət etməyi çox sevən İzzət Əfəndi "Çaysız söhbət aysız göy üzü kimidir" deyir. Çayın çox qısa tarixi və




yetişmə-yayılma coğrafiyasına toxunduqdan sonra çayın növləri, hazırlanması, faydaları haqqında danışır. Müəllif çayı şəkərlə içməyin faydalı olduğunu deyir, çünki şəkərlə çaydakı zərərli maddələrin təsirini aradan qaldırmaq olur. Şəkər qıtlığı zamanı meyvə qurularından istifadə etmək mümkündür. Çay bir çox xəstəliklərin müalicəsinə, həmçinin "qəm və kədərin aradan qaldırılmasına" kömək edir. Samavar çayı başqa hər hansı üsulla hazırlanan çaydan daha yaxşıdır!

İzzət Əfəndi çaya inək və ya keçi südü qatmanın faydasını qeyd edir. O, yaşıl çayın zərərləri barədə deyilən və yazılanların bilməməzlikdən, təcrübəsizlikdən qaynaqlandığını irəli sürür. Türkiyə`yə çayın İran və Azərbaycan`dan, Qafqaz`dan gəldiyi güman olunur.


Həsən bəy Zərdabi

Çay, qəhvə və kakao`nun nə olduğu, xeyri-zərəri barədə xüsusi yazan ilk azərbaycanlı, zənnimcə Həsən bəy Zərdabi`dir (1842-1907). Öz "Əkinçi" qəzeti (1875-1877) ilə Azərbaycan jurnalistikasının banisi olmuş, tələbəsi, gələcək dramaturq Nəcəf bəy Vəzirov`la birlikdə Azərbaycan teatrının əsasını qoymuş böyük maarifçi Həsən bəy Moskva Universiteti fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq fakültəsini bitirmişdi. O, Azərbaycan və rusca yazdığı məqalələrində həyatın və cəmiyyətin əsasını təşkil edən əksər məsələlərə toxunmuş, xüsusilə təbiət hadisələrinin, o cümlədən canlı təbiət fenomenlərinin mahiyyətini, onların fayda və zərərləri, səbəb və nəticələri barədə oxunaqlı məqalə və kitabçalar yazmışdı.

Kiyev`də təhsil alan azərbaycanlı tələbələr Həsən bəy`in ölümündən sonra onun iki kitabçasını hazırlayıb, 1912-ci ildə Kiyev`də nəşr etdirdilər. Onlardan biri "Bədəni salamat saxlamaq düsturüləməlidir" adı ilə nəşr olunmuşdu, kitabın üz qabığında rusca Гигиена (Qiqiena) yazılmışdı (*Bax: Həsən bəy Zərdabı. Seçilmiş əsərləri. "Azərnəşr", Bakı, 1960*). Gigiyena ensiklopediyası sayıla bilən bu maraqlı kitabçada (19-cu əsr biliklərinə əsaslanan bəzi tövsiyələri sadəlövh görünsə də) Həsən bəy içkilər haqqında da məlumat vermiş və tövsiyələr etmişdi. Avropa`da çox geniş yayılan, "müsəlmanlara haram buyurulan" şərab, araq, konyak, likör və pivə barədə bir az danışmış, üzümdən içki düzəldənlər "bizim yerlərə də gəlib çıxıblar və ümid var ki, tezliklə yeməyə üzüm tapmayaq" deyib, iqtisadçı düşüncəsi göstərmişdir: üzüm bağlarını genişləndirmək və üzümü satmaq üçün çalışmaq vacibdir.

Həsən bəy içki olaraq əsasən qəhvə, çay və kakao haqqında söhbət açmışdır. Müəllif bu içkilərin hər birinin vətəni, haradan gətirildiyi, onların qoxu və dadı, insanın əhvalına təsiri barədə danışmışdır. O, bu içkilərin içindəki xoş qoxu verən "ətir yağı"nı və "nəşə verən, insan beyninə təsir edən" maddəni müzakirə etmiş, alkohol, kafein, tein`i, teobromin, həmçinin tənbəkidə olan nikotini yada salmışdı. "Qəhvə və çay insanın yorğunluğunu alır, zehnini artırır..., amma artıq içəndə.. baş ağrıdır, yuxunu kəsir...". İnsanın yaşı və qəhvənin təsiri barədə fikri maraqlıdır: "Onun qoca və zəif adama xeyri çoxdur, cavana xeyri yoxdur, amma uşağa zərərdir". Müəllif kakaodan şokolad adlı içkinin alınmasını da qeyd etmişdir. Həsən bəy bu içkilərin hazırlanması, xeyri və zərəri, əsl olanla saxta olanı necə ayırmaq, hansı ölkələrdə bu içkilər nə qədər içilir kimi məsələlərə də toxunmuşdu. Onun o dövrə aid məlumatına görə, qəhvə tükətimində ABŞ brinci, Almaniya ikincidir, çayda birinci İngiltərə, kakaoda isə Fransa`dır. Müəllif içki aludəçiliyinin psixoloji tərəfinə də nəzər salmışdı: "zəmanəmiz qəm-qüssə zəmanəsidir, ona görə nə qədər qadağan şədid (şiddətli, sərt – H.İ.) olsa, o şeylərdən insan əl çəkə bilmir".


بدنی سلامت ساخلامق
دستورالعمليدر
مؤلفی
حسن بك ملك زاده
(زردابی)

Изданіе группы студентов Мусульман г. Кіева № 3

ГИГІЕНА

Составил

Гасан-бек Мелик-заде

(Зардаби)

1914





*Rövşən Kərimov, Rövşən Abbasov, Kyle Schwartz*
*Rovshan Karimov, Rovshan Abbasov, Kyle Schwartz*

## EDİNBURQ NAPİER UNİVERSİTETİNİN DOKTORANT TƏLƏBƏSİ "XƏZƏR"DƏ

Fevral, mart, aprel aylarında Şotlandiyada yerləşən Edinburq Napier Universitetinin doktorant tələbəsi Kyle Schwartz Erasmus+ Tələbə Mübadilə Proqramı (KA 107\171) çərçivəsində Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamenti tərəfindən qəbul edildi.

Proqram müddətində departamentin müdiri Rövşən Abbasov və müəllimi Rövşən Kərimovun rəhbərliyi ilə Kyle Schwartz`ın Azərbaycanın regionlarına, iri yaşayış məntəqələri və tarixi yerlərinə, o cümlədən İsmayıllı, İvanovka, Lahıc və Şamaxıya səfərləri oldu. Eləcə də İsmayıllı rayonunun kənd bələdiyyələrinin rəhbərləri ilə görüşlər keçirildi. Regionlara səfərlərin məqsədi həm də yerli əhali ilə sorğular keçirmək idi.

Kyle Schwartz AMEA Coğrafiya İnstitutunda öz tədqiqat mövzusu ilə əlaqədar seminar keçirdi. Seminar qaçqın miqrasiyası, Himalay bölgəsində iqlim təsirləri və fəlakət riskinin azaldılması ilə bağlı idi.

Proqramın sonunda Kyle Schwartz`a sertifikat və hədiyyə təqdim edildi.

## PHD STUDENT OF EDINBURGH NAPIER UNIVERSITY AT KHAZAR UNIVERSITY

In February, March, April Kyle Schwartz, PhD student at Edinburgh Napier University, Schotland, visited the Department of Geography and Environment of Khazar University as part of the Erasmus+ Student Exchange Program (KA 107171).

During the program, together with the department head Rovshan Abbasov and its lecturer Rovshan Karimov, Kyle Schwartz visited the regions of Azerbaijan, Uri settlements and historical places, including Ismayilli, Ivanovka, Lahij and Shamakhi. Also, meetings were held with the heads of rural municipalities of Ismayilli district. The purpose of the visits to the regions was also to conduct surveys with the local population.

Kyle Schwartz conducted a seminar on his research topic at ANAS Institute of Geography. The workshop focused on refugee migration, climate impacts and disaster risk reduction in the Himalayan region.

At the end of the program, Kyle Schwartz was presented with a certificate and a gift.



*Beynəlxalq ofis: Turan Əlizadə, Vlad Vernygora, Fatimə Vəliyeva*

*International office: Turan Alizade, Vlad Vernygora, Fatima Valiyeva*

## İSTANBUL AYDIN UNİVERSİTETİNDƏ BİR SEMESTR



Mən Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin İngilis dili müəllimliyi ixtisası üzrə 4-cü kurs tələbəsiyəm.

Erasmus+ Tələbə Mübadilə Proqramı çərçivəsində Türkiyənin İstanbul Aydın Universitetində bir semestr ərzində təhsil almışam.

Mübadilə proqramının əsas hissəsi müəllimlik təcrübəsi idi. Məlum olduğu kimi, müəllimlik ixtisasında təhsil alan bütün 4-cü kurs tələbələrindən 2 semestr ərzində öz peşəsi üzrə təcrübə keçməsi tələb olunur. Mənim təcrübə keçdiyim məktəb "CND okullari" idi. Orada həm dərs demək, həm də dərsləri müşahidə etmək imkanım oldu. "CND okullari"nda ingilis dili əsas dil olduğuna görə tələbələrin əksəriyyəti əcnəbi idi.

Mübadilə proqramımın gözəl tərəflərindən biri o idi ki, illərdir internet üzərindən tanıdığım pakistanlı dostum da İstanbul Aydın Universitetinin tələbəsi idi. Dostum mənə urdu dilini, mən isə ona Azərbaycan dilini öyrədirdim.

Proqramın təşkil etdiyi "Beynəlxalq Kulinariya Günü" adlı tədbirdə də iştirak etdim. Orada iştirak edən hər kəs öz ənənəvi yeməklərini hazırlamalı idi. Bu zaman biz müxtəlif yeməklərlə tanış olmaqla yanaşı, həmçinin, digər ölkələr haqqında da məlumatlar əldə etdik.

Ümumilikdə, cəmi beş ay ərzində Erasmus mənə böyük təcrübə və çoxlu xatirələr bəxş etdi. Bu proqram sayəsində həm dünyanın bir çox ölkəsindən olan tələbələrlə tanış oldum, həm də öz təhsil səviyyəmdə yeni bir pilləyə yüksəldim.

**Əsmər Paşayeva**

## A SEMESTER IN ISTANBUL AYDIN UNIVERSITY

I am the 4th year student of the School of Humanities, Education and Social Sciences of Khazar University, majoring in English language teaching.

I studied for one semester at Istanbul Aydın University in Türkiye within the framework of the Erasmus+ Student Exchange Program. The main part of my exchange program was teaching experience.

As it is known, all 4th year students majoring in the teaching are required to do an internship in their profession for 2 semesters. The school where I had an internship was "CND Schools". I had the opportunity to hold and observe classes there. Since English is the main language in "CND schools", most of the students were foreigners.

One of the great things about my exchange program was that my Pakistani friend, whom I had known for years online, was also a student at Istanbul Aydın University. My friend taught me Urdu and I taught him Azerbaijani.

I also took part in the event "International Culinary Day" organized by the program. Everyone present had to prepare their own traditional dishes. There we not only got acquainted with various dishes, but also learned about other countries.

All in all, in just five months, Erasmus gave me a great experience and a lot of memories. Thanks to this program, I met students from many countries around the world, and also I have reached a new level in my education.

**Asmar Pashayeva**

# FULBRAYT TƏDQİQATÇILARI ÜÇÜN TƏDBİR
# EVENT FOR FULBRIGHT SCHOLARS



*Vlad Vernygora*



Mayın 2-də Xəzər Universitetinin "Neftçilər" kampusunda Nailəxanım Mədəniyyət Mərkəzində Fulbrayt qonaq tədqiqatçıları üçün qarşılama mərasimi təşkil edildi. Tədbirin məqsədi onları universitet heyətinə təqdim etmək idi.

Dr. Qaisar Sultana inklüziv təhsil sahəsində böyük təcrübəyə malikdir. Proqram çərçivəsində o, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Təhsil departamentində inklüziv təhsil sahəsində təlimlər keçir.

Hazırda Dr. Elnur Gajiev də Xəzər Universitetinin qonaq tədqiqatçısıdır. O, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Psixologiya departamentində Sənət terapiyası və Menecment psixologiyası fənlərindən mühazirə söyləyir.

Tədbirdə, eyni zamanda, Eastern Kentucky Universitetinin professoru Ronald Wayne Smith də iştirak etdi. O, tələbələrin ingilis dilində danışıq bacarıqlarını inkişaf etdirmək məqsədilə danışıq klubları təşkil edir.

Xəzər Universitetinin rektoru İradə Xəlilova və Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora qısa nitq söylədilər. Sonra qonaq tədqiqatçılar öz xoş təəssüratlarını bölüşdülər. Tədbirdə Xəzər Universitetinin Kamera orkestri bədii rəhbər - universitetin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın müşayiəti ilə əsərlər səsləndirdilər. Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbəsi Elvin

On May 2, a welcoming ceremony for Fulbright visiting researchers was organized at the Nailekhanim Cultural Center in the "Neftchilar" campus of Khazar University. The purpose of the event was to present them to the university staff.

Dr. Qaisar Sultana has extensive experience in the field of inclusive education. Within the framework of the program, she conducts training in the field of inclusive education at the Department of Education of the School of Humanities, Education and Social Sciences.

Currently, Dr. Elnur Gajiev is also a visiting researcher at Khazar University. He lectures on Art Therapy and Management Psychology in the Department of Psychology of the School of Humanities, Education and Social Sciences.

Ronald Wayne Smith, professor of Eastern Kentucky University, also participated in the event. He organizes conversation clubs to improve students' English speaking skills.

Rector of Khazar University Irada Khalilova and vice-rector for International Relations Vlad Vernygor delivered short speeches. Then the visiting researchers shared their good impressions. Khazar University Chamber Orchestra performed works accompanied by art director Zulfiyya Sadigova, head of the University's Department of Music and Arts. Elvin Aliyev, the student of the School of Humanities, Education and Social

Əliyev musiqi ifa etdi. Qonaqlar üçün çay süfrəsi açıldı.

Tədbirin sonunda rektor İradə Xəlilova qonaq tədqiqatçılara hədiyyələr təqdim etdi.

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət İşləri Bürosunun proqramı olan Fulbrayt təqaüd proqramı ABŞ-ın Bakıdakı səfirliyi tərəfindən idarə olunur.



*Eastern Kentucky*



*İradə Xəlilova, Irada Khalilova* *Qaisar Sultana Qaisar Sultana*

Sciences, performed music. A tea party was held for the guests.

At the end of the event, rector Irada Khalilova presented gifts to the guest researchers.

Note that the Fulbright scholarship program, which is a program of the US Department of State's Bureau of Educational and Cultural Affairs, is administered by the US Embassy in Baku.



*Elnur Gajiev*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN TELEKANALLARINDA

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD IN AZERBAIJAN TV CHANNELS

2023-cü il mayın 1-də Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu *Xəzər TV* və *arb24* televizyasına, eləcə də bakivaxti.az saytına Türkiyədəki siyasi proseslər, Azərbaycan-Türkiyə münasibətlərinin müxtəlif istiqamətləri və regional məsələlərlə bağlı açıqlamalar vermişdir.

On May 1, 2023, the head of the Department of History and Archeology, Dr. Telman Nusratoghlu, gave interviews to *Khazar TV* and *arb24* television, as well as to the bakivaxti.az website, about political processes in Türkiye, various directions of Azerbaijan-Türkiye relations, and regional issues.

* * *

2023-cü il mayın 4-də Dr. Telman Nüsrətoğlu *AZTV*-nin "Əsas məsələ" proqramında Avrasiya geosiyasətində yaşanan dəyişikliklər və Azərbaycanın artan strateji əhəmmiyəti, İpək yolundakı tarixi Türk mədəni-siyasi mirasının yenidən yüksəlişə keçməsi haqqındakı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On May 4, 2023, Dr. Telman Nusratoghlu, shared with the audience his views on the changes in Eurasian geopolitics and the growing strategic importance of Azerbaijan, the resurgence of the historical Turkish cultural and political heritage on the Silk Road, in the "Main Topic" program of *AZTV*.

* * *

2023-cü il mayın 10-da Dr.Telman Nüsrətoğlu *AZTV*-nin "Əsas məsələ" proqramında Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixində oynadığı müstəsna rol, milli dövlətçilik və müstəqilliyimizin qorunub möhkəmləndirilməsindəki əvəzsiz xidmətləri ilə bağlı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On May 10, 2023, Dr.Telman Nusratoghlu shared with the audience his views on the exceptional role played by national leader Heydar Aliyev in the history of Azerbaijan and his invaluable services in preserving and strengthening our national statehood and independence in *AZTV*'s "Main Topic" program.

* * *

2023-cü il mayın 18-də Dr. Telman Nüsrətoğlu *AZTV*-nin "Əsas məsələ" və *arb24*-ün "Gündəm" proqramlarında Ermənistan baş naziri Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıdığına dair bəyanatını şərh etmişdir.

On May 18, 2023, Dr. Telman Nusratoghlu commented on the Armenian Prime Minister Pashinyan's statement on recognizing Karabakh as part of Azerbaijan in *AZTV*'s "Main Topic" and *arb24*'s "Agenda" programs.

### "XƏZƏR"İN MÜƏLLİMİ AZTV-NİN "GÜN BAŞLADI" PROGRAMINDA

Xəzər Universiteti Tarix və Arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Bayram Quliyev 2023-cü il mayın 2-də *AZTV*-nin "Gün başladı" proqramında tarix məsləhətçisi olduğu "Əsrarəngiz Azərbaycan" sənədli filmi haqqında məlumat vermişdir. Xatırladaq ki, ilk mövsümü 10 (on) bölüm olaraq hazırlanan bu sənədli film Türkiyənin *NTV*, Azərbaycanın *İçtimai TV* yayımlanır.

### KHAZAR UNIVERSITY FACULTY MEMBER ON AZTV`S "THE DAY HAS STARTED" PROGRAM

On May 2, 2023, the lecturer of the Department of History and Archeology of Khazar University, PhD in history Bayram Guliyev gave information about the documentary film "Mysterious Azerbaijan", in which he was a history consultant on *AZTV*'s "The day has started" program. Note that the first season of this documentary, produced as 10 (ten) episodes, is broadcast on *NTV* of Türkiye and *Public TV* of Azerbaijan.

## TƏLƏBƏLƏR ŞİRVANŞAHLAR SARAY KOMPLEKSİNDƏ

Mayın 5-6-da Tarix və arxeologiya departamentinin Azərbaycan tarixi fənni üzrə müəllimi Səidə İzmailova rus bölməsi mühəndis və humanitar qrupları ilə birgə ölkənin orta əsr dövlətçilik tarixində mühim yer tutan Şirvanşahlar dövlətinin İçərişəhərdəki saray kompleksində olublar.

## STUDENTS IN COMPLEX OF SHIRVANSHAHS' PALACE

On May 5-6, Saida Izmailova, the instructor of Azerbaijani history at the Department of History and Archeology, together with engineering and humanitarian groups (Russian section), visited the palace complex of the Shirvanshahs state in Icheri Sheher, which has an important place in the history of the country's medieval statehood.



Tələbələrə kompleksin hissələri - Divanxana, Şah məcsidi, Şah türbəsi, Keyqubad məscidi, Seyyid Yəhya türbəsi, hamam və ovdan haqqında məlumat verilmişdir.

Ekskursiyadan sonra müəllim və tələbələr İçərişəhərdə gəzintiyə çıxıblar.

The students were informed about the parts of the complex - Divankhana, Shah Mosque, Shah Tomb, Keygubad Mosque, Seyyid Yahya Tomb, Place of bath and Ovdan. After the excursion, the instructor and students went for a walk in Icheri Sheher.

## “BREND TƏLƏBƏ”: “ÜÇ İL ƏVVƏLƏ QAYITSAM, YENİDƏN "XƏZƏR"İ SEÇƏRDİM”

*Məlum olduğu kimi, AzEdu.az təhsil portalı universitetlərlə birgə tələbələr arasında sağlam rəqabətlilik mühiti yaratmaq, aktiv gəncləri daha geniş müstəvidə tanıtmaq və onların bacarıqlarını gələcək tələbələrə çatdırmaq məqsədilə “Brend tələbə”lərin siyahısını tərtib edib və onlarla müsahibələr keçirir. 2023-cü il mayın 5-də saytda bu siyahıda yer alan “Xəzər”in “Brend tələbə”si Afət Əhmədova ilə müsahibə dərc olunmuşdur. Müsahibəni oxucularımıza təqdim edirik.*

**- Məktəb dönəmində müəllimlərin gözündə necə bir şagird idiniz?**

- Düşünürəm ki, bu sualı müəllimlərimin cavablandırmağı daha uyğun olardı. Onu deyə bilərəm ki, məktəb dönəmindən aktiv şagird olmağa çalışmışam. Məqsədim hər zaman məktəbimizin adını ucaltmaq idi. Məktəb vaxtları bir çox yarışlara və müsabiqələrə qatılmışam. ”Əlaçı” televiziya verilişində məktəbimizi təmsil edən ilk şagird olmuşam, ”Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində məktəbimiz tərəfindən seçilərək, Naxçıvan şəhərində olmuşam. Həmçinin, "Kenquru" Beynəlxalq Riyaziyyat olimpiadasının ilk turunda 10-cu siniflər arasında 2-ci yerin sahibi, Qaradağ rayonu üzrə isə 1-ci yerin sahibi olmuşam. Ümid edirəm ki, müəllimlərin gözündə aktiv şagird kimi xatırlanıram. Qeyd edim ki, orta təhsilimi Qaradağ rayonundakı 294 saylı tam orta məktəbdə almışam.

**- Universitetə hazırlaşdığınız vaxtlarda ixtisas və ali məktəb seçimi etmişdiniz?**

- Deyərdim ki, ən mühüm və ən çətin seçim oldu. Çünki bir seçimlə bütün həyatının təməlini qoyursan. Bizim bu seçimimiz doğru da ola bilər, yanlış da...

Səhv seçim etməməyimiz üçün doğru yönləndirilməli və doğru məlumatlar əldə etməliyik. İlk ixtisas seçimindən başlasaq, fikrimcə burada ilk addım maraqdır, daha sonra isə gələcək üçün əhəmiyyətin nə qədər vacib olmasıdır.

Biologiya fənnini ilk tədris olunan gündən çox sevmişdim. Həmçinin, bu fənni çox sevməyim birbaşa müəllimimlə əlaqəli idi. Biologiya müəllimim 294-saylı tam orta məktəbdə çalışan Vəfa Babayeva idi. O zaman düşünürdüm ki, genetika mühəndisi ola bilməsəm, mütləq onun kimi savadlı və sevimli müəllim olacağam.

Təhsilimi Azərbaycanda davam etdirməli olduğuma görə genetika sahəsini seçə bilmədim. Universitet seçimim isə çox maraqlı olmuşdu. Bu seçimi ixtisas.az platformasının köməyi ilə etmişdim. Həmin platforma vasitəsi ilə seçimi birbaşa olaraq biologiya müəllimi işləyən, bu gün təhsil sahəsində yetərincə tanınan Qoşqar Məhərrəmovun köməyi ilə etdim. Özüm də universitetlər barədə axtarışlar aparmışam. Nəticə etibarilə, ixtisasca kimya-biologiya müəllimliyini, təhsil alacağım yer kimi isə Xəzər Universitetini seçdim. Xəzər Universiteti barədə qısa deyəsi olsam, sadəcə bir cümləylə ifadə edərdim: üç il əvvələ qayıtsam, yenidən "Xəzər"i seçərdim.

**- Dərslərə yaxşı hazırlaşmağın çətin gəldiyi dönəmlər olub?**

- Bəzən universitet dərsləri ilə əlavə fəaliyyətləri bir arada aparmaq çətinlik yaradır. Lakin həmişə özümə deyirəm, əziyyətsiz heç nə olmur. Əgər qoyduğumuz məqsəd ciddidirsə, hər zaman çətinliyə dözməyə dəyər.

**- Universitetə hazırlıq vaxtlarında yadda qalan hansısa xatirəniz varmı?**

- Hazırlıq dönəmi barəsində onu deyə bilərəm ki, ən xoşbəxt olduğum günlər idi. Olduqca maraqlı, həmçinin bir o qədər də məsuliyyətli dönəm idi. Lakin xüsusi danışacağım xatirə yoxdur.

**- Universitetdə başqa hansı fəaliyyətləriniz var?**

- İlk təhsil aldığım il pandemiya vaxtı ilə üst-üstə düşdüyünə görə, aktiv fəaliyyət göstərə bilməmişdim. Sadəcə dərslərimə fokuslanaraq, ortalamamı yüksək tutmağa çalışırdım. İkinci kursdan etibarən universitet fəaliyyətlərində aktiv olmuşam. Universitetimizin “Karyera və İnkişaf” ofisində təcrübəçi kimi fəaliyyətə başlamışam. Təcrübə müddətində bir çox yeni məlumatlar əldə etdim. Həmçinin, universitet kollektivi ilə daha yaxından tanışlıq imkanım oldu. Bir çox tədbirlərin, seminarların və universitetimizdə keçirilən beynəlxalq konfransların təşkilatçılığında iştirak etmişəm. Xəzər Universitetinin təşkilatçılığı və “Erasmus+PICASP”

layihəsi çərçivəsində Şəki şəhərinə səfər edərək, ən yaxşı bələdçi nominasiyası üzrə 1-ci yerin sahibi olub, pul mükafatı və sertifikatla mükafatlandırılmışam. Dərsdənkənar fəaliyyətlərə görə Xəzər Universitetinin rektoru İradə Xəlilova tərəfindən sertifikatla mükafatlandırılmışam. Bundan sonra da universitetin fəaliyyətlərində aktiv olmağa çalışacağam.

**- Dillərə marağınız var, neçə dil bilirsiniz?**

- Ən çox sevdiyim dil alman dilidir. Alman dilini sevməyimin səbəbi həmin ölkəni çox sevməyimdir. Lakin hazırda təhsilim üçün türk və ingilis dilinin üzərində çalışıram.




*Xəzər Universitetinin rektoru İradə Xəlilova və Keyfiyyət Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova tələbələrlə birlikdə; soldan birinci Afət Əhmədova*

*Rector of Khazar University Irade Khalilova and Director of Quality Assurance Center Lyudmila Sotova together with students; Afat Ahmadova, first from the left*

**- Heç xaricdə oxumaq barədə düşünmüsünüz?**

- Bəli, düşünürəm ki, xaricdə təhsil almaq ilk növbədə fərqli təcrübədir. Yeni həyat, fərqli insanlar və fərqli adət-ənənələr mənim üçün çox maraqlıdır. Bütün bunları yaşamağa və öyrənməyə dəyər. Bakalavr təhsilimi bitirdikdən sonra magistatura təhsilimi xarici ölkələrdən birində davam etdirmək istərdim.

**- Bəs təhsilinizi bitirdikdən sonra gələcəklə bağlı nə kimi planınız var?**

- Gələcəkdə öz sevdiyim ixtisas olan biologiya müəllimi kimi ən yaxşı özəl məktəblərin birində işləmək istəyirəm.

**- Şəxsi inkişaf üçün hansı üsullardan istifadə etdiyinizi deyə bilərsiniz?**

- Düşünürəm ki, şəxsi inkişaf üçün ilk olaraq yeniliklərə açıq olmalısan və düzgün ətraf seçməlisən. Düzgün ətrafın olması çox vacibdir. Çalışıram ki, ətrafımdakı insanlar da hər zaman öz üzərlərində işləsin.

**Ləman Novruz**

*https://azedu.az/az/news/67248-brend-telebe-universitete-daxil-oldugum-gunden-muellimlik-edirem-musahibe*




## HEYVAN RİFAHI KLUBUNUN TƏŞKİL ETDİYİ MAARİFLƏNDİRİCİ TƏLİM

Mayın 7-də Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Heyvan Rifahı Klubu tərəfindən Bakı Zooloji Parkında "Vəhşi və kənd təsərrüfatı heyvanlarının rifahı" mövzusunda maarifləndirici təlim keçirilmişdir.

Təlimdə klubun həmtəsisçiləri - baytarlıq ixtisası üzrə 3-cü kurs tələbələri Səmanə Alquliyeva və Nigar Əsgərova təlimin məqsədi haqqında klub üzvlərinə ətraflı məlumat vermiş, zoopark şəraitində heyvanların rifahının təmin olunmasına dair müzakirələr aparmışlar.

Sonra klub üzvləri təlim nəticəsində əldə etdikləri məlumatları əyani şəkildə müşahidə etmək məqsədilə zooparkda heyvanların saxlanma şəraiti, qidalanması və digər qulluq işləri ilə tanış oldular.

## EDUCATIONAL TRAINING OGANIZED BY ANIMAL WELFARE CLUB

On May 7, the Animal Welfare Club at Khazar University held an educational training on "Welfare of wild and farm animals" in Baku Zoological Park.

In the training, the co-founders of the club - 3rd year veterinary students Samana Alguliyeva and Nigar Asgarova gave detailed information to the club members about the purpose of the training and held discussions on ensuring the welfare of animals in zoo conditions.

In order to visually observe the information obtained from the training, club members got to know the conditions of keeping, feeding, and caring for animals in the zoo.

## İSVEÇRƏNİN "SHG SWISS HOSPITALITY GROUP" ŞİRKƏTİ İLƏ GÖRÜŞ

## MEETING WITH "SHG SWISS HOSPITALITY GROUP" OF SWITZERLAND



*Ahmed Sami* *Attia Elrefaei* *Eric Gregoire*



*Hamlet İsaxanlı*
*Hamlet Isakhanli*

Mayın 8-də Xəzər Universitetində İsveçrənin turizm, otelçilik və turizm menecmenti sahəsində aparıcı şirkətlərindən olan "SHG Swiss Hospitality Group" ilə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, İqtisadiyyat və menecment departamentinin koordinatoru Bahadır Baysal, "SHG Swiss Hospitality Group"un direktoru Eric Gregoire, Biznesin İnkişafı üzrə direktor Attia Elrefaei və professor Ahmed Sami iştirak etdilər. Görüşdə "SHG Swiss Hospitality Group" nümayəndələrinə Xəzər Universiteti haqqında ətraflı məlumat verildi, Qonaqpərvərlik və Turizm Menecmenti (Hospitality Management and Business Management) sahəsində bakalavr və MBA təhsili üzrə əməkdaşlıq müzakirə olundu. Tərəflər birgə əməkdaşlığın qurulmasında maraqlı olduqlarını bildirdilər. Bu məqsədlə danışıqların davam etdirilməsi və növbəti görüşlərin keçirilməsi qərara alındı.

On May 8, a meeting was held at Khazar University with "SHG Swiss Hospitality Group", one of Switzerland's leading companies in the field of tourism, hospitality, and tourism management. The founder of Khazar University, chairman of the Board of Directors and Trustees professor, academician Hamlet Isakhanli, rector of the University associate professor Irade Khalilova, vice-rector for International Relations Vlad Vernygora, dean of the School of Economics and Management Jeyhun Mammadov, dean of the Graduate School of Economics and Business Ingilab Ahmadov, coordinator of the Department of Economics and Management Bahadır Baysal, director of SHG Swiss Hospitality Group Eric Gregoire, director of Business Development Attia Elrefaei and professor Ahmed Sami attended the meeting.

At the meeting, the representatives of "SHG Swiss Hospitality Group" were given detailed information about Khazar University, cooperation on bachelor's and MBA education in the field of Hospitality Management and Business Management was discussed. The parties expressed their interest in establishing joint cooperation. To this end, it was decided to continue the negotiations and hold the further meetings.

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNDƏ "ZAMAN VƏ MƏKANIN SƏRHƏDİ VARMI?" ADLI SEMİNAR

Mayın 8-də Fizika və elektronika departamentində Fizika müəllimliyi ixtisasının tələbəsi Xanım Ramazanova tərəfindən "Zaman və məkanın sərhədi varmı?" adlı seminar keçirildi. Seminarda departamentin tələbələri və müəllimləri iştirak etdilər. Seminar tələbələrlə elmi diskussiya şəklində aparıldı.

## SEMINAR ENTITLED "DOES TIME AND SPACE HAVE BOUNDARIES?" IN PHYSICS AND ELECTRONICS DEPARTMENT

On May 8, a seminar entitled "Does time and space have boundaries?" was held by Khanim Ramazanova, a student majoring in Physics teaching at the Department of Physics and Electronics. The seminar was attended by students and teachers of the Department. The seminar was held in the form of a scientific discussion with students.

## İNŞAAT MÜHƏNDİSLİYİ İXTİSASININ TƏLƏBƏLƏRİ "GEOENGİNEERİNG" ŞİRKƏTİNDƏ

## CIVIL ENGINEERING STUDENTS AT "GEOENGINEERING" COMPANY

Xəzər Universitetinin İnşaat mühəndisliyi departamenti ilə "Geoengineering" şirkəti arasında əldə olunmuş razılaşmaya görə inşaat mühəndisliyi ixtisasının tələbələri mayın 10-da şirkətdə oldular.

Şirkət, əsasən, dənizdə və quruda geotexniki və geoloji tədqiqat işləri ilə məşğuldur. Bununla əlaqədar şirkətdə böyük qrunt mexanikası laboratoriyası fəaliyyət göstərir. Tələbələr Avropa standartlarına uyğun fəaliyyət göstərən laboratoriya ilə ətraflı tanış oldular və laboratoriyada aparılan fiziki-mexaniki sınaqları yaxından izlədilər.

Görüşün hər iki tərəf üçün səmərəli olduuğunu nəzərə alaraq, gələcəkdə də əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olunmuşdur.

According to the agreement reached between the Department of Civil Engineering of Khazar University and the company "Geoengineering", the students majoring in civil engineering visited the company on May 10.

The company is mainly engaged in onshore and offshore geotechnical and geological survey work. In In this regard, the company has a large laboratory of soil mechanics. The students got acquainted in detail with the laboratory, which operates in accordance with European standards, and closely followed the physical and mechanical tests conducted in the laboratory.

Taking into account the fact that the meeting was fruitful for both sides, an agreement was reached on the continuation of cooperation in the future.

# XƏZƏR UNİVERSİTETİNİN HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİNDƏ MƏSLƏHƏT ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

# MEETING WITH ADVISORY BOARD MEMBERS AT KHAZAR UNIVERSITY SCHOOL OF HUMANITIES, EDUCATION AND SOCIAL SCIENCES





*Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova*

*Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences*

Mayın 11-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsində əmək bazarından və iş dünyasından nümayəndələrin təmsil olunduğu Məsləhət Şurasının üzvləri ilə Fakültə Elmi Şurasının görüşü keçirilmişdir. Görüşdə fakültənin qarşısına qoyduğu hədəflər, tədris prosesinə cəlb olunan kadrlar, təşkilati məsələlər, tələbələrin hərtərəfli inkişafı - onlarda peşə etikasının, komandada işləmək bacarıqlarının formalaşması üçün mövcud təhsil proqramlarının və təlim nəticələrinin təkmilləşdirilməsi, karyera inkişafı, istehsalat təcrübəsi və pedaqoji internaturanın təşkili məsələləri müzakirə olunmuşdur.

On May 11, the School of Humanities, Education and Social Sciences of Khazar university hosted a meeting with members of the Advisory Board, where representatives from the labor market and business world were represented.

At the meeting, the goals set by the faculty, personnel involved in the teaching process, organizational issues, comprehensive development of students - improvement of existing educational programs and training results for the formation of professional ethics, teamwork skills, career development, organization of industrial experience and pedagogical internship were discussed.





*Bakı "Dünya" Kompleksinin direktoru Nazpəri Bayramova, Sumqayıt "Dünya" məktəbinin direktoru Çiçək Qaracayeva*

*Director of Baku "Dunya" Complex Nazperi Bayramova, Director of Sumgait "Dunya" School Garacayeva*

## EKSPRESS TƏHSİL MƏRKƏZİ "XƏZƏR"DƏ

## EXPRESS EDUCATION CENTER AT KHAZAR UNIVERSITY





*Mələk Kərimova*
*Malak Kərimova*

Mayın 11-də Xəzər Universitetində Qəbələ rayonu Ekspress Təhsil Mərkəzinin dinləyiciləri və müəllim kollektivi ilə görüş keçirilmişdir. Universitetin rektoru İradə Xəlilova giriş sözü ilə çıxış etmişdir. Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı seminar keçirmiş və abituriyentlərin suallarını cavablandırmışdır.

Sonda universitetin əməkdaşı Ləman Məmmədova Xəzər Universiteti haqqında təqdimatla çıxış etmişdir.

On May 11, a meeting was held with the students and teaching staff of Gabala district Express Education Center at Khazar University. Rector of the university, Irade Khalilova, made an introductory speech. Malak Karimova, coordinator of the Psychology Department, held a seminar on time management, eliminating anxiety during the exam process, and effective work methods and answered the applicants' questions.

In the end, Laman Mammadova, Khazar University employee made a presentation about university.



## "ZAMANI İDARƏ ET" MÖVZUSUNDA SEMİNAR



*Aidə Ramiz*

Mayın 11-də "Profity Academy" – Konsultasiya və Təlim Mərkəzi və Xəzər Universitetinin birgə əməkdaşlığı ilə universitetdə "Zamanı idarə et" mövzusunda seminar keçirildi. Seminar akademiyanın nümayəndəsi Aidə Ramizin tələbələri təlim mərkəzi haqqında ümumi məlumatlandırması ilə başladı.

Ardınca konsultant Vüsal Soltanlı "Time Management", yəni zamanın doğru şəkildə idarə edilməsinin yolları ilə bağlı təqdimatında gənclərə həyatlarının istənilən mövqeyində, ələlxüsus da iş həyatında bunun böyük əhəmiyyətindən bəhs etdi.

Seminarın davamında Profity Academy mərkəzinin qurucusu Natiq Hüseynov həm mərkəzin tələbə və gənclərin özünü inkişaf etdirməsində rolundan, eyni zamanda hal-hazırda icra etdikləri bütün fəaliyyətlərin ümumi məzmunundan danışdı.

Sonda dinləyici və təlimçilər arasındakı sual-cavab prosesi əsnasında uğurlu olan 2 tələbəyə Profity Academy tərəfindən ödənişsiz konsultasiya hədiyyə olundu.

## SEMINAR ON "TIME MANAGEMENT"



*Aida Ramiz*

On May 11, a seminar on "Time Management" was held at Khazar University with the joint cooperation of "Profit Academy" - Consulting and Training Center and Khazar University. The seminar started with the general information of Aida Ramiz, the representative of the Academy, about the training center.

Then, consultant Vusal Soltanli spoke about the great importance of" Time Management", that is, the ways of managing time in any position of their lives, especially in working life.

Natig Huseynov, the founder of the Profity Academy Center, spoke about the role of the center in the self-development of students and young people, as well as the general content of all the activities they are currently performing.

In the end, 2 students, who were successful during the question-and-answer process between the audience and trainers, were given a free consultation by Profity Academy.




*Natiq Hüseynov* *Natig Huseynov*



*Vüsal Soltanlı* *Vusal Soltanli*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN TELEKANALLARINDA

# POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD IN AZERBAIJAN TVCHANNELS

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü il aprelin 29-da *Füyuzat TV* internet kanalının “Gündəmə baxış” proqramında “Azərbaycanda milli fikir və xarici siyasət” mövzusunda fikirlərini paylaşmışdır.

On April 29, 2023 the head of the Department of Political Sciences and Philosophy, Dr.Orkhan Valiyev, shared his views on "National Thought and Foreign Policy in Azerbaijan" in the "Agenda Review" program of the *Fuyuzat TV* internet channel.

*https://www.youtube.com/watch?v=DRI4nLa3B1Q*

* * *

Dr. Orxan Vəliyev 2023-cü il mayın 6-da *arb24 TV*-nin “Gündəm” proqramında Azərbaycanla Ermənistan arasında sülh danışıqları, Qarabağdakı Rus sülhməramlı qoşunlarına yeni təyin edilən komandanın Bakıya səfəri, xarici işlər nazirlərinin ABŞ-ın dövlət katibi Entoni Blinkonun ev sahibliyi ilə baş tutan görüşü haqqında fikir və dəyərləndirmələrini paylaşmışdır.

On May 6, 2023, Dr.Orkhan Valiyev shared his views and assessments on the peace negotiations between Azerbaijan and Armenia, the visit of the newly appointed commander of the Russian peacekeeping troops in Karabakh to Baku, the meeting of foreign ministers hosted by US Secretary of State Antony Blinken on *arb24 TV*'s "Agenda" program.

*https://www.youtube.com/watch?v=ei2MZ1fwUys*

* * *

Dr. Orxan Vəliyevin “Azərbaycanın siyasət və tarix məsələsi” adlı məqaləsi *fuyuzat.az* internet qəzetinin 8 may 2023-cü il tarixli nömrəsində dərc edilmişdir. Məqalədə Azərbaycanda siyasət və tarix məsələsi xanlıq, çarlıq, sovet dövrü və müstəllik dövrləri konteksində ələ alınmışdır.

The article by Dr. Orkhan Valiyev entitled "Politics and History of Azerbaijan" was published in the May 8, 2023 issue of *fuyuzat.az* online newspaper. The article deals with the issue of politics and history in Azerbaijan in the context of the khanate, tsarist, Soviet and independence periods.

*https://fuyuzat.az/az%c9%99rbaycanin-siyas%c9%99t-v%c9%99-tarix-m%c9%99s%c9%99l%c9%99si/?fbclid=IwAR2xJVZSE4OrrjwNSCq1cnduZtJHXVi_QwKIvpxhNbLqqo_DiBdxYRUr3e8*

* * *

Dr. Orxan Vəliyevin “Heydər Əliyev: Qərar, Qurucu və Azərbaycanlı” mövzusunda məqaləsi *AZƏRTAC*-ın (Azərbaycna Dövlət İnformasiya Agentliyi) internet səhifəsində dərc edilmişdir.

Dr. Orkhan Valiyev's article on "Heydar Aliyev: Decision, Founder and Azerbaijani" was published on the website of *AZERTAC* (State Information Agency of Azerbaijan).

*https://azertag.az/xeber/Heyder_Aliyev_Qerar_Qurucu_ve_Azerbaycanli-2610275*

## XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN KÖMƏKÇİSİ ŞAHMAR MÖVSÜMOVLA GÖRÜŞMÜŞDÜR

## HAMLET ISAKHANLI, FOUNDER OF KHAZAR UNIVERSITY, PROFESSOR, ACADEMICIAN MEETS WITH SHAHMAR MOVSUMOV, ASSISTANT TO THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

Mayın 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Azərbaycan Respublikasının Prezidentinin İqtisadi məsələlər və İnnovasiya üzrə köməkçisi Şahmar Mövsümovla görüşmüşdür.

Görüşdə Azərbaycanda iqtisadi məsələlər, Qarabağ iqtisadi rayonunda təhsil və təlim, o cümlədən peşə təhsili problemləri müzakirə olunmuşdur. Həmçinin, Xəzər Universitetinin inkişaf perspektivləri və infrastrukturundan da söhbət açılmışdır.

On May 12, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli met with Shahmar Movsumov, assistant to the President of the Republic of Azerbaijan for Economic Affairs and Innovation.

During the meeting, economic issues in Azerbaijan, education and training in the Karabakh economic region, including vocational training were discussed. Also, the development prospects and infrastructure of Khazar University were discussed.

## İSTANBUL AYDIN UNİVERSİTETİ XƏZƏR UNİVERSİTETİNDƏ İNFOSESSİYA KEÇİRDİ

Mayın 12-də Türkiyənin İstanbul Aydın Universiteti Xəzər Universitetində "2023-cü il İstanbul Yay Məktəbi" ("Delightful Istanbul 2023 Summer School") haqqında infosessiya keçirdi. İnfosessiyada İstanbul Aydın Universiteti Ümumi şöbəsinin müdir müavini Serkan Yolsal, İstanbul Universitetinin Bakı nümayəndəliyi, Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora, Beynəlxalq əlaqələr ofisinin koordinatorları Arzu Bədəlova, Fatimə Vəliyeva, Turan Əlizadə və universitetinə tələbələri iştirak edirdilər.

Tədbiri prorektor Vlad Venrygora açaraq, qonaqları və tələbələri salamladı. Sonra İstanbul Aydın Universitetinin Bakı nümayəndəliyi universitet və proqram haqqında tanıtım videoçarxı və təqdimat nümayiş etdirdi.

Sonda tələbələrin sualları cavablandırıldı.

## ISTANBUL AYDIN UNIVERSITY HOLDS INFO SESSION AT KHAZAR UNIVERSITY

On May 12, Istanbul Aydın University, Turkiye, held an info session about "Istanbul Summer School 2023" ("Delightful Istanbul 2023 Summer School") at Khazar university. Serkan Yolsal, deputy head of the General Department of Istanbul Aydin University, Baku Office of Istanbul University, Vlad Vernygora, vice-rector for International Relations of Khazar University, Arzu Badalova, Fatima Valiyeva, Turan Alizade, coordinators of the International Relations Office, and university students participated in the info session.

The event was opened by Vice-Rector Vlad Venrygora, who greeted the guests and students. Then, the Baku representative office of Istanbul Aydin University demonstrated a promotional video and presentation about the University and the program.

At the end, students ' questions were answered.

# "XƏZƏR"DƏ NHN-BREYN RİNG YARIŞI
# WWW-BRAIN RING COMPETITION AT KHAZAR UNIVERSITY



**1-ci yer:** *Kənan Bünyadov, Seyid Həsənli, Şamil Namazov, İbrahim Ələskərli*

**1st place:** *Kanan Bunyadov, Seyid Hasanli, Shamil Namazov, Ibrahim Alaskarli*

Mayın 12-də Xəzər Universitetinin Tarix klubu və universitetin Kuantum İntellektual Oyunlar Klubunun ortaq təşkilatçılığı ilə NHN-Breyn Ring yarışı keçirildi.

Yarışda Xəzər Universitetinin tələbələrindən ibarət 12 komanda yarışdı. Yarış 2 turdan ibarət oldu. İlk turda NHN formatında 24 sual verildi. Bu turda ən çox xal yığmış 5 komanda arasında Breyn Ring yarışı keçirildi. İlk öncə 2 yarımfinal oyunu oynandı. Bu turlardan sonra isə ən güclülər BoomShakaLaka və BoomWakaWaka komandaları arasında final oyunu keçirildi.

Oyunun qalibi BoomWakaWaka komandası oldu (İbrahim Ələskərli, Seyid Həsənli, Şamil Namazov, Kənan Bünyadov).

2-ci yeri BoomShakaLaka komandası tutdu (Hüseyn Heydərli, Tərlan Şükürov, Məhəmmədzamin Eynəlizadə, Hüseyn Qoçayev, Cəmaləddin Səfərli).

3-cülük yarışında isə Excalibur və Superiors komandaları yarışdı. Superiors komandası qalib gələrək, 3-cü yerin sahibi oldu (Elvin Dadaşov, Benjamin Oded, Fariz Mirzəzadə, Amil Abbasov, Nurlan İsmayılov).

Sonda komandaların iştirakçıları medal və sertifikatla mükafatlandırıldı

On May 12, the WWW-Brain Ring competition was held under the joint organization of Khazar University's History Club and the university's Quantum Intellectual Games Club.

12 teams of Khazar University students participated in the competition. It consisted of 2 rounds. In the first round, 24 questions were asked in WWW format. A Brain Ring competition was held between the 5 teams that scored the most points in this round. First, 2 semi-final games were played. After these rounds, the final game was held between the strongest BoomShakaLaka and BoomWakaWaka teams.

The winner of the game was the BoomWakaWaka team (Ibrahim Alaskarli, Seyid Hasanli, Shamil Namazov, Kanan Bunyadov).

The 2nd place was taken by the BoomShakaLaka team (Huseyn Heydarli, Tarlan Shukurov, Mahammadzamin Eynelizade, Huseyn Gochayev, Jamaleddin Safarli).

The teams Excalibur and Superiors competed for the 3rd place. The team of Superiors won the 3rd place (Elvin Dadashov, Benjamin Oded, Fariz Mirzazade, Amil Abbasov, Nurlan Ismayilov).

At the end, the participants of the teams were awarded with medals and certificates



**2-ci yer:** *Hüseyn Qaçayev, Cəmaləddin Səfərli, Məhəmmədzamin Eynəlizadə, Hüseyn Heydərli, Tərlan Şükürov,*

**2nd place:** *Huseyn Gochayev, Jamaleddin Safarli, Mahammadzamin Eynelizade, Huseyn Heydarli, Tarlan Shukurov,*



**3-cü yer:** *Benjamin Oded, Fariz Mirzəzadə, Elvin Dadaşov, Amil Abbasov, Nurlan İsmayılov*

**3rd place:** *Benjamin Oded, Fariz Mirzazade, Elvin Dadashov, Amil Abbasov, Nurlan Ismayilov*



## "XƏZƏR"İN MÜƏLLİMİNİN ŞEİR KİTABLARININ TƏQDİMATI

Mayın 16-da Xəzər Universitetində tanınmış şair, universitetin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Qardaşxan Əzizxanlının (Haqqarar) "İlkim də sən, indim də sən, sonum sən" və "Nə o – yelkən, nə bu – gəmi" adlı şeir kitablarının təqdimat və imza mərasimi keçirilib.

Dillər və ədəbiyyatlar departamentinin müdiri dos. Dilbər Zeynalovanın moderatorluğu ilə keçirilən tədbirdə sənət və elm adamları, habelə universitetin müəllim və tələbə heyəti iştirak edib.

Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas-

## THE PRESENTATION OF KHAZAR UNIVERSITY FACULTY MEMBER`S POETRY BOOKS

On May 16, Khazar University hosted a presentation and signing ceremony of poetry books entitled "My first is you, my present is you, and my last is you" and "Neither that sail, nor this ship" by Gardashkhan Azizkhanli (Haqqarar), a well-known poet, lecturer in the Department of Languages and Literature of the University, Ph. D. in philology.

The event, moderated by assoc. prof. Dilbar Zeynalova, head of the Department of Languages and Literature, was attended by representatives of art and science, as well as faculty and students of the University.



esseist Ülvi Babasoy çıxışında Qardaşxanın orijinal yaradıcılıq üslubuna malik olduğunu vurğulayıb, təqdim edilən kitablarının üstün və özəl məziyyətlərindən danışıb. Məruzəçi son "Nə o – yelkən, nə bu – gəmi" adlı şeir kitabının struktur və məzmun xüsusiyyətlərindən söz açaraq, kitaba daxil olan bölmələrin tərkib özəlliklərini, bədii-estetik cəhətlərini qeyd edib. Kitabı onun konseptuallığı, minimalizmi və məzmun zənginliyi baxımından yüksək qiymətləndirən ədəbiyyatşünas alim bu kitabı Qardaşxanın 45 illik yaradıcılıq yolunun "həm kilidi, həm də açarı" adlandırıb.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, şair-




*Səlim Babullaoğlu Salim Babullaoghlu*

tərcüməçi Səlim Babullaoğlu Q.Əzizxanlı şeiri ilə yanaşı, ümumiyyətlə, müasir dünya ədəbiyyatının, bütövlükdə poeziyanın əsas inkişaf istiqamətlərindən bəhs edərək, Qardaşxanın yığcam olduğu qədər də obrazlı yazı tərzinin üstünlüyünü önə çəkib. Poeziyanı "ali nitq hadisəsi" adlandıran natiq fikirlərini əsaslandırmaq üçün Qardaşxan şeirinə müraciətlər edib.

Bir-birindən maraqlı çıxışların olduğu tədbirdə uzun illər zabit poqonu daşımış Q.Əzizxanlının xidmət yoldaşları, onun yaradıcılığını yaxından izləyənlər söz alıb. Ehtiyatda olan zabit Ramiz Şəmiyev, tərcüməçi-publisist Novruz Novruzov, Xəzər Univer-

*(Ardı səh.74-də)*



*Novruz Novruzov*




*Ülvi Babasoy Ulvi Babasoy*

The lecturer of the Department of Languages and Literature, PhD in philology, literary critic-essayist Ulvi Babasoy emphasized that Gardashkhan has an original creative style and spoke about the special merits of his books. The speaker talked about the structural and content features of the last poetry book " Neither that sail, nor this ship ", and noted the compositional features of the sections included in the book, as well as artistic and aesthetic aspects. Appreciating the book in terms of its conceptuality,




*Ramiz Şəmiyev Ramiz Shamiyev*

minimalism and richness of content, the literary scholar called this book "both the lock and the key" of Gardashkhan's 45-year creative path.

Vice-chairman of the Azerbaijan Writers' Union, poet-translator Salim Babullaoghlu, in addition to G. Azizkhanli's poem, talked about the main directions of development of modern world literature and poetry as a whole, highlighting the superiority of Gardashkhan's concise as well as figurative writing style. Calling poetry a "higher speech phenomenon", the speaker referred to Gardashkhan's poem to justify his views.

At the event, where interesting speeches were made,

*(To be continued page 74)*

sitetinin müəllimi Mais Talışxanov, SOCAR-ın Baş Ofisinin böyük mühəndisi Cabbar Məmmədov və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylinin çıxışları və şairə ünvanladığı suallar Q.Əzizxanlının həyat, xidmət və yaradıcılıq yoluna daha da işıq salıb.

Dil-ədəbiyyat, kimya-biologiya ixtisası tələbələrindən Sənur Yaqubov, Könül Həsənli, Şəfa Yusifova, Aysun Qubadova və Aygün İsmayılova Qardaşxan Əzizxanlının "Yağış", "Əllərimlə gözlərimi tutmuşam", "Hər səhər beləcə", "Bəlkə", orijinaldan tərcümə etdiyi Y.V.Hötenin "Sevgiliyə yaxın" ("Nähe des Gelibten") şeirlərini xüsusi şövqlə söyləyiblər.

Tədbir şairin çıxışı və imza mərasimi ilə yekunlaşıb.




*Mais Talışxanov Mais Talishkhanov*




*Sənur Yaqubov Sanur Yagubov*

the floor was taken by G. Azizkhanli 's comrades-in-arms, who had been an officer for many years, and those who closely followed his work.

The speeches of reserve officer Ramiz Shamiyev, translator-publicist Novruz Novruzov, Khazar University teacher Mais Talishkhanov, SOCAR Head Office senior engineer Jabbar Mammadov and Khazar University Public Relations and Media Director Alovsat Amirbeyli and the questions they addressed to the poet shed more light on the way of life, service and creativity of G. Azizkhanli.

Students majoring in language-literature, chemistry-biology specialities Sanur Yagubov, Konul Hasanli, Shafa Yusifova, Aysun Gubadova and Aygun Ismayilova recited the poems of Gardashkhan Azizkhanli "Rain", "I covered my eyes with my hands", "So every morning", "Maybe", and "Close to lover", the poem by J. W. Goethe which he translated from the original, with special enthusiasm.

The event ended with the poet's speech and signing ceremony.



*Şəfa Yusifova Shafa Yusifova*




*Aysun Qubadova Aysun Gubadova*

***https://azertag.az/xeber/Qardasxan_Azizxanlinin_seir_kitablarinin_teqdimat_ve_imza_merasimi_olub-2620466***

# RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏLƏRİ XARİCİ NƏŞRLƏRDƏ

# ARTICLES BY MATHEMATICS DEPARTMENT PROFESSOR IN FOREIGN PUBLICATIONS

## "LE MATEMATICHE" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Hahn multiplicative calculus," ("Hahn multiplikativ hesablama") adlı birinci həmmüəllifi olduğu məqaləsi "Le Matematiche" jurnalında (2022, Cild 77; № 2) çap olunub. Qeyd edək ki, "Le Matematiche" jurnalı Web of Science və Scopus bazalarında indekslənib.

Məqalədə Hahn multiplikativ hesablama təqdim edilir və bu mövzunun tətbiqi olaraq Şturm-Liouville problemi bu struktur altında araşdırılır.

## IN "LE MATEMATICHE" JOURNAL

Khazar University Mathematics Department professor Bilander Allahverdiyev's first co-authored article entitled "Hahn multiplicative calculus" was published in "Le Matematiche" journal (2022, Vol. 77; No. 2). Note that "Le Matematiche" journal is indexed in Web of Science and Scopus databases.

In this paper, Hahn multiplicative calculus was introduced and as an application of this subject, the classical Sturm-Liouville problem was examined under this structure.

*https://lematematiche.dmi.unict.it/index.php/lematematiche/issue/view/86*

* * *

## "KONURALP JOURNAL OF MATHEMATICS" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "q-multiplicative Dirac system" ("q-multiplikativ Dirak systemi") adlı birinci müəllifi olduğu məqaləsi "Konuralp Journal of Mathematics" jurnalında (2023, Cild 11, № 1) dərc olunmuşdur. Qeyd edək ki, "Konuralp Journal of Mathematics" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

Məqalədə klassik Dirak tənliyi q-multiplikativ hesablama əsasında tədqiq edilir. Müəlliflər qmultiplikativ Dirak sisteminin bəzi spektral xüsusiyyətlərini, məsələn, formal olaraq öz-özünə qoşma olmasını və məxsusi funksiyaların ortoqonallığını tədqiq edirlər. Nəhayət, bu sistem üçün Qrin funksiyası yenidən qurulur.

## IN "KONURALP JOURNAL OF MATHEMATICS"

Khazar University Mathematics Department professor Bilander Allahverdiyev's article entitled "q-multiplicative Dirac system" was published in "Konuralp Journal of Mathematics" magazine (2023, Vol. 11, No. 1). Note that "Konuralp Journal of Mathematics" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

In this paper, the classical Dirac equation was investigated on the basis of q-multiplicative calculus. The authors discuss some spectral properties of the q-multiplicative Dirac system, such as formally self-adjointness, and orthogonality of eigenfunctions. Finally, Green's function for this system has been reconstructed.

*https://dergipark.org.tr/en/download/article-file/2544906*

* * *

## "PALESTINE JOURNAL OF MATHEMATICS" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Singular conformable fractional Dirac system" ("Sinqulyar uyğun kəsirli Dirak sistemi") adlı birinci müəllifi olduğu məqalə "Palestine Journal of Mathematics" jurnalında (2023, Cild 12, № 1) dərc olunmuşdur. Qeyd edək ki, "Palestine Journal of Mathematics" jurnalı Scopus bazasında indekslənib.

Məqalədə müəlliflər uyğun kəsirli Dirak sistemi üçün klassik Veyl-Titçmarş nəzəriyyəsini qururlar.

## IN "PALESTINE JOURNAL OF MATHEMATICS"

The article " Singular conformable fractional Dirac system " the first author of which is Bilander Allahverdiyev, professor of Khazar University Mathematics Department, was published in "Palestine Journal of Mathematics" (2023, Vol. 12, No. 1). Note that "Palestine Journal of Mathematics" is indexed in the Scopus database.

In this paper, the authors establish the classical Weyl-Titchmarsh theory for conformable fractional Dirac system.

*https://pjm.ppu.edu/paper/1337-singular-conformable-fractional-dirac-systems*



*Hamlet İsaxanlı Hamlet Isakhanli*

## GƏNCƏ "DÜNYA" MƏKTƏBİNDƏ İNCƏSƏNƏT VƏ İDMAN FESTİVALININ AÇILIŞI

Mayın 21-də Xəzər Universiteti Gəncə "Dünya" məktəbində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş İncəsənət və İdman Festivalının açılışı oldu. Festivalın əsas məqsədi istedadlı şagirdləri üzə çıxarmaq, region məktəbləri arasında elm və təhsil sahəsində mübadilələr üçün şərait yaratmaq və dostluq əlaqələri qurmaqdır.

Üç mərhələdən ibarət festivalda 6-18 yaş arası şəxslər iştirak edəcək. Festival ümumilikdə 11 nominasiya - instrumental ifaçılıq, robotexnika, solo ifaçılıq, minifutbol, voleybol, karate-do, rəsm və rəngkarlıq, inşa, bədii qiraət və aktyorluq, şahmat və rəqs üzrə keçirilir.

Festivalın açılışında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, Xəzər Universiteti və Bakı "Dünya" Məktəbinin əməkdaşları, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Yazıçılar Birliyi, Gəncə Gənclər Evi və digər təşkilatlardan nümayəndələr, millət vəkilləri, regionun tanınmış incəsənət adamları, məktəb direktorları, məktəblilər və valideynlər iştirak edirdilər.

## OPENING OF THE ART AND SPORTS FESTIVAL AT GANJA "DUNYA" SCHOOL

On May 21, the Art and Sports Festival dedicated to the 100th anniversary of the birth of National Leader Heydar Aliyev was opened at Khazar University Ganja "Dunya" school. The main goal of the festival is to identify talented students, create conditions for exchanges between regional schools in the field of science and education, and establish friendly relations.

People aged 6-18 will participate in the festival, which consists of three stages. The festival is held in a total of 11 nominations - instrumental performance, robotics, solo performance, mini football, volleyball, karate-do, drawing and painting, essay writing, artistic reading and acting, chess and dance.

At the opening of the festival, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, employees of Khazar University and Baku "Dunya" School, Ganja-Dashkasan Regional Education Department, Ganja City Executive Authority, Ganja Writers' Union, Ganja Youth House and representatives from other organizations , members of parliament, well-known artists of the region, school principals, schoolchildren and parents participated.



Məktəblilərin nominasiyalara bölünərək keçdikləri parad, rəqslər, çıxışlar festivalın açılışında böyük təntənə yaratdı.

Festivalda hər iştirakçı fərdi olaraq yalnız bir nominasiya üzrə iştirak edə bilir. İkinci mərhələ may ayının sonunda təşkil ediləcəkdir. İkinci mərhələdə fərqlənən iştirakçılar final mərhələsinə vəsiqə qazanacaqlar. Festivalın final mərhələsi isə iyun ayının ilk 10 günlüyündə "Qala gecəsi" formasında təşkil olunacaqdır. Qaliblər müxtəlif hədiyyə və diplomlarla mükafatlandırılacaqlar.

The parade, dances, performances, which schoolchildren went through, divided by nominations, created a great solemnity at the opening of the festival

Each participant in the festival can participate individually in only one nomination. The second stage will be held at the end of May. Participants who stand out in the second stage will qualify for the final stage. The final stage of the festival will be organized in the form of "Gala night" in the first 10 days of June. The winners will be awarded with various gifts and diplomas.











# DÜNYANIN ƏN TƏHLÜKƏSİZ TURİZM BÖLGƏLƏRİ

2023-cü ildə səyahət üçün dünyanın ən təhlükəsiz turizm bölgələri seçilib.

İsveçrə siyasi sabitlik, zorakılıq səviyyəsinin aşağı olması və keyfiyyətli səhiyyə xidmətləri baxımından 2023-cü ildə istirahət üçün ən təhlükəsiz bölgələr siyahısına başçılıq edir.

Hesabatda dünya ölkələri təbii fəlakət riskləri, yol-nəqliyyat hadisələri, qətl cinayətləri, terrorizm, səhiyyə infrastrukturunun keyfiyyəti və qadınların təhlükəsizliyi baxımından qiymətləndirilib.

Diqqət çəkən məqam odur ki, ilk onluğa daxil olan, bütün istiqamətlər, demək olar Avropada yerləşir. Şimali Skandinaviya ölkələri də bu baxımdan yaxşı təmsil olunur. Belə ki, ikinci yerdə İslandiya, üçüncü yerdə Norveç, Portuqaliya və Sloveniya qərarlaşıb.

Cədvəlin əks tərəfində Yamayka var ki, burada qətl nisbəti İsveçrədən təxminən 60 dəfə yüksəkdir. Braziliya, Cənubi Afrika və Meksika da yüksək qətl cinayətlərinə görə reytinqdə aşağı yerləri tuturlar. Filippin təbii fəlakət riskinin artması səbəbindən ən aşağı yerlərdə qərarlaşıb.

Beləliklə, dünyanın ən təhlükəsiz 20 istirahət ölkəsi olaraq İsveçrə, İslandiya, Norveç, Portuqaliya, Sloveniya, Finlandiya, Yeni Zelandiya, Danimarka, Sinqapur, Avstriya, Almaniya, İsveç, Avstraliya, Kanada, İspaniya, Belçika, Çexiya, Niderland, İtaliya, Fransa qeyd olunub.

https://moderator.az/az/dunya/615920/dunyanin-en-tehlukesiz-turizm-blgeleri-aciqlandi/

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi